AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

14 APREL 2019-cu il BAZAR № 80 (6407) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Son bir ildə: Prezidentin fəaliyyətinin başlıca məqamları

**Dünyada ölkə başçılarının fəaliyyətlərinin müəyyən dövrlər üzrə qiymətləndirilməsi bir ənənəyə çevrilib. Bu sırada prezidentlərin birillik fəaliyyəti xüsusi yer tutur. Azərbaycan Prezidenti İlham Əliyevin də növbəti dəfə Prezident seçilməsindən bir il ötür. Bununla bağlı ekspertlər geniş analizlər aparırlar. Onların təhlili göstərir ki, keçən müddət ərzində İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük uğurlara imza atıb. Bütün sahələr üzrə həyata keçirilən proqramlar, islahatların davam etdirilməsi konkret müsbət nəticələr verib. Vurğulayaq ki, Azərbaycan Prezidentinin birillik fəaliyyətinə beynəlxalq təşkilatlar və ekspertlər də ciddi maraq göstəriblər. Onların da fikrinə görə, İlham Əliyev olduqca uğurlu siyasi kurs reallaşdırır. Biz vurğulanan məqamlar kontekstində dövlət başçısının ötən bir ildəki uğurlu fəaliyyətinin analizi üzərində daha geniş dayanmağa böyük ehtiyac görürük.**




## Yüksək etimad: demokratik seçkidə inamlı qələbə qazanan lider

İlham Əliyevin növbəti dəfə Prezident seçilməsindən bir il ötür. Ekspertlər bu müddəti analiz edir, qiymətləndirmələr aparır və proqnozlar verirlər. Bir sıra xarici ekspertlər və təşkilatlar da Azərbaycan Prezidentinin fəaliyyəti barədə öz fikirlərini ifadə edirlər. Aparılan müqayisələr, gətirilən faktlar, həyata keçirilən proqramlar sübut edir ki, ölkə rəhbərinin son bir ildəki fəaliyyəti tamamilə uğurlu olub. Müstəqil dövlət quruculuğu prosesi məzmunca yeni səviyyəyə yüksəlib. Bu, daxili və xarici siyasətə eyni dərəcədə aiddir. Əldə olunan nəticələrin işığında həmin qənaətin doğruluğuna tam əminlik yaranır.

Hər şeydən öncə, bir il əvvəl keçirilən seçkinin demokratikliyi və şəffaflığını vurğulamaq lazımdır. Azərbaycan bütün dünyaya nümayiş etdirdi ki, yüksək seçki mədəniyyətinə malikdir. Seçkidə iştirak edən bütün namizədlər üçün geniş təbliğat imkanları yaradılmışdı. Ölkə KİV-ləri bərabər şərtlər daxilində onların hər birinin rahat qaydada fikrini ifadə etməsi, mövqeyini açıqlaması üçün şans verirdi. Seçki günü də proses tam demokratik ruhda, sabitlik mühitində keçdi. Seçici azad surətdə layiq bildiyi namizədə səs verdi. Səsvermənin nəticəsinə görə, İlham Əliyev bütün rəqiblərini qabaqladı - 86,02 faiz səs topladı. Bu, vətəndaşların Prezidentə olan yüksək etimadının birbaşa göstəricisi idi.

İlham Əliyev xalqın tam dəstəyini hiss edərək, böyük fəallıqla ölkəyə rəhbərlik etməkdədir. Keçən müddət ərzində bütün istiqamətlərdə böyük proqramlar həyata keçirilib, islahatlar aparılıb. Daxili və xarici siyasətdə uğurlar qazanılıb. Onların analizi göstərir ki, müstəqil dövlət quruculuğu faktiki olaraq yeni səviyyəyə yüksəlib və bu prosesin böyük perspektivi vardır.

Son bir ildə ölkədə əhalinin sosial rifahının yüksəldilməsi və sosial təminatın daha da inkişaf etdirilməsi istiqamətlərində ciddi addımlar atılıb. Azərbaycan sözün həqiqi mənasında sosial dövlət olduğunu dünyaya bir daha nümayiş etdirib. Prezident İlham Əliyev şəhid ailələrinə, müharibə veteranlarına və əlillərə daim diqqət və qayğı göstərib. Təsadüfi deyil ki, keçən il Prezident seçkilərindən sonra imzalanan ilk Fərman şəhid ailələrinə birdəfəlik 11 min manat məbləğində kompensasiyanın verilməsi ilə bağlı oldu.

Sonrakı Fərmanla şəhid ailələrinə verilən müavinət 242 manatdan 300 manata qaldırıldı. Bundan başqa, Əfqanıstanda həlak olanların ailələri üçün müavinət də 300 manat oldu. 2018-2019-cu illərdə şəhid ailələrinə 1426 mənzil verilməsi nəzərdə tutulmuşdu ki, onun da 700-ə yaxını artıq verilib.

Məcburi köçkünlər daim Azərbaycan Prezidentinin diqqət mərkəzində olub. Son bir ildə həmin sahədə də sosial islahatlar davam edib. Məsələn, bu günlərdə İlham Əliyev Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkün ailələri üçün istifadəyə verilən yeni yaşayış kompleksini açdı. Bu, sayca ölkə üzrə məcburi köçkünlər üçün salınan 103-cü müasir yaşayış kompleksidir. Təkcə Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib.

Son bir ilin təcrübəsi onu da təsdiq etdi ki, dövlət başçısı daim ölkə vətəndaşının yanındadır. Bu il Şamaxıda, Ağsuda, İsmayıllıda baş verən zəlzələ nəticəsində insanlara dəyən ziyanın kompensasiya edilməsi üçün lazımi addımların atılması barədə Prezident göstərişlər verdi. Şəxsən özü təbii fəlakətlərin olduğu yerlərə gedib, insanlarla ünsiyyətdə oldu. Qeyd edək ki, bu səfərlər onu da göstərdi ki, xalqın öz rəhbərinə dərin hörməti var və onun apardığı siyasəti tam dəstəkləyir.

Mütəxəssislər bütövlükdə Prezidentin son fərman, sərəncam və qərarlarının hər birini sosial inqilab kimi dəyərləndirirlər. Ölkə rəhbəri vurğulayır ki, maliyyə imkanları möhkəmlənən ölkəmizdə hazırlanan sosial paketdə daha ciddi islahatlar nəzərdə tutulur. Bu kontekstdə onu da vurğulamaq gərəkdir ki, Dünya Bankı tərəfindən açıqlanan "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti kimi göstərilib. Hətta Azərbaycan ən çox islahat aparan ölkə kimi qiymətləndirilib. Hesabatda Azərbaycan 190 ölkə arasında 25-ci yerdə göstərilib.

Prezident İlham Əliyevin rəhbərliyi altında son bir ildə Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurları Avropa Yenidənqurma və İnkişaf Bankı da yüksək qiymətləndirib. Davos İqtisadi Forumunun "Qlobal Rəqabətlilik 2019" hesabatına əsasən isə Azərbaycan 140 ölkə arasında 12-ci yeri tutur.

Azərbaycan Prezidentinin son bir ildə əhalinin sosial maraqlarının müdafiəsinə və rifah halının yaxşılaşmasına yüksək diqqət yetirdiyini təsdiqləyən faktlar sırasında 2019-cu ilin fevral ayında imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" və "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanlarını ayrıca vurğulamaq lazımdır. Çünki hər iki məsələ cəmiyyət üçün aktuallıq kəsb edirdi və dövlət başçısı zamanında buna reaksiya verərək, düzgün qərar verdi. Təbii ki, cəmiyyət ölkə rəhbərinin bur qayğısını yüksək qiymətləndirir.

**(davamı 2-ci səhifədə)**

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 dekabr tarixli 1890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 dekabr tarixli 1890 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 12, maddə 1172; 2014, N 5, maddə 477, N 9, maddə 1027; 2015, N 7, maddə 841; 2016, N 2 (II kitab), maddə 251, N 8, maddə 1384; 2017, N 8, maddə 1521) ilə təsdiq edilmiş "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın 2.4.14-cü yarımbəndinin "İcraçılar" sütunundan ", "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 aprel 2019-cu il.**

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 12, maddə 2056; 2017, N 8, maddə 1521, N 10, maddə 1777; 2018, N 5, maddə 920, N 6, maddə 1196, N 7 (I kitab), maddələr 1496, 1506, N 11, maddə 2287; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 fevral tarixli 519 nömrəli və 22 fevral tarixli 537 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** "7. Strateji hədəflər" hissəsi üzrə:

*1.1.* 7.2.2-ci yarımbəndin "Tədbir 2.2.1: İntensiv ferma modeli əsasında iri heyvandarlıq komplekslərinin yaradılmasının təşviqi" abzasında "Aqrolizinq" ASC" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi" sözləri ilə əvəz edilsin;

*1.2.* 7.4.2-ci yarımbəndin "Tədbir 4.2.3: Müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi" abzasının birinci cümləsində "Aqrolizinq" ASC xətti ilə lizinqə" sözləri "Lizinqə" sözü ilə əvəz edilsin;

*1.3.* 7.4.3-cü yarımbəndin "Tədbir 4.3.3: Aqroservis xidmətləri bazarının inkişaf etdirilməsi" abzasının ikinci cümləsindən "Aqrolizinq" ASC-nin, eləcə də" sözləri çıxarılsın.

**2.** "10. Tədbirlər planı" hissəsi üzrə:

*2.1.* 4.2.3-cü yarımbəndin "Digər icraçılar/Tövsiyə" sütunundan "Aqrolizinq" ASC," sözləri çıxarılsın, "Əsas icraçı" sütununa "Kənd Təsərrüfatı Nazirliyi" sözlərindən sonra ", Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC" sözləri əlavə edilsin;

*2.2.* 4.3.1 - 4.3.3-cü yarımbəndlərin "Digər icraçılar/Tövsiyə" sütunundan "Kənd Təsərrüfatı Nazirliyi," sözləri çıxarılsın və həmin yarımbəndlərin "Əsas icraçı" sütununda "Aqrolizinq" ASC" sözləri "Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 aprel 2019-cu il.**

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 4, maddə 527; 2018, N 2, maddə 221, N 8, maddə 1678, N 12 (I kitab), maddə 2594) ilə təsdiq edilmiş "Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.4-cü bənddə "enerji təchizatı şəbəkəsinə" sözləri "ETŞ-yə" sözləri ilə əvəz edilsin.

**2.** 1.11-ci bəndin ikinci cümləsində "24 (iyirmi dörd)" rəqəmləri və sözləri "20 (iyirmi)" rəqəmləri və sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 aprel 2019-cu il.**

## "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 8, maddə 1670) 7.1.1-ci maddəsinə "ümumvətəndaş" sözündən əvvəl "şəxsiyyət vəsiqəsi, habelə" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 mart 2019-cu il.**

## "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1548-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1548-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 9 aprel 2019-cu il.**

*Hikmət HACIYEV:*

# "Bir kəmər, bir yol" Azərbaycan-Çin əməkdaşlığı üçün böyük imkanlar yaradır




**"Bir kəmər, bir yol" təşəbbüsü Azərbaycan ilə Çin arasında əməkdaşlıq üçün böyük imkanlar yaradır.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Pekində Çinin nüfuzlu kütləvi informasiya vasitələrinə - milli xəbər agentliyi Sinxuaya, Çin Mərkəzi Televiziyasının ingilisdilli kanalına (CGTN) və "China Daily" qəzetinə müsahibələrində xüsusi vurğulanan məqam olub.

Çin KİV-ləri qeyd edir ki, Şərqi Avropa və Qərbi Asiya arasında yolların kəsişməsində yerləşən Azərbaycan Çin ilə yüksək səviyyəli dialoqa, iqtisadi və ticari əməkdaşlığa, habelə təhsil, mədəniyyət və digər sahələrdə səmərəli münasibətlərə malikdir.

Çin Xalq Respublikasının Sədri Si Cinpinin müəllifi olduğu "Bir kəmər, bir yol" strategiyasının səmərəli əlaqələrə və tərəfdaşlığa söykənən əhatəli əməkdaşlıq gətirdiyini qeyd edən Hikmət Hacıyev bildirib ki, bu təşəbbüs ilə Azərbaycanın inkişaf gündəliyində duran məsələlər arasında böyük sinerji var. Azərbaycan bu təşəbbüs çərçivəsində bütün layihələrdə iştiraka hazırdır.

Prezident Administrasiyasının şöbə müdiri deyib ki, iki ölkənin iqtisadi, o cümlədən ticarət, kənd təsərrüfatı, enerji, neft kimyası, turizm sahələrində əməkdaşlığı üçün böyük imkanlar var. Azərbaycan Çindən daha çox sərmayələrin cəlb olunmasını alqışlayır.

Qeyd olunub ki, Azərbaycan və Çin beynəlxalq müstəvidə qarşılıqlı etimada və hörmətə əsaslanan münasibətlərin qurulmasına töhfələr verir. İki ölkə Şanxay Əməkdaşlıq Təşkilatı da daxil olmaqla regional və beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edir.

Çin KİV-ləri Azərbaycanın əlverişli coğrafi mövqeyi ilə Avropa və Asiya arasında nəqliyyat qovşağı rolunu oynamağı hədəflədiyini vurğulayaraq, Hikmət Hacıyevin sözlərinə istinadla, Azərbaycanın dəniz və hava limanları, avtomobil və dəmir yolları daxil olmaqla geniş nəqliyyat şəbəkəsini yaratdığını yazır. Çin ilə Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xətti 2017-ci ilin oktyabrında istifadəyə verilib. Bu, "Bir kəmər, bir yol" təşəbbüsü müstəvisində əsas orta dəhliz kimi fəaliyyət göstərir.

Reportajlarda Azərbaycanın Çin ilə iqtisadiyyatın müxtəlif sahələri, o cümlədən ticarət, investisiya, maliyyə istiqamətləri üzrə əməkdaşlığın daha da genişlənməsinə səy göstərdiyi vurğulanıb. Bildirilib ki, Azərbaycan Çinə kənd təsərrüfatı məhsullarının, o cümlədən şərab, quru meyvə, meyvə şirələri və qənnadı məmulatlarının ixracı ilə bağlı intensiv danışıqlar aparır. Azərbaycan şirkətləri öz məhsullarını daha yaxşı tanıdılması və yerli bazara çıxışının təmin olunması üçün ötən il Şanxayda keçirilən birinci Çin beynəlxalq idxal sərgisi də daxil olmaqla, Çində təşkil olunan ərzaq və kənd təsərrüfatı məhsulları sərgi və yarmarkalarında fəal iştirak edir.

Hikmət Hacıyev Azərbaycan ilə Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün tərkib hissəsi kimi xalq təmaslarının, o cümlədən turizm sahəsində əməkdaşlığın, təhsil əlaqələrinin, mədəni mübadilənin genişləndirilməsinə çalışdığını diqqətə çatdırıb. Bu ilin fevralında Pekində iki ölkə arasında turizm sahəsində imzalanmış anlaşma memorandumu çinli turistləri Azərbaycana səfərə gətməyə təşviq edəcək.

Qeyd olunub ki, Çinin Cənubi Qafqaz ilə ticarətinin demək olar ki, yarısı Azərbaycanın payına düşür. Azərbaycan Çin qiymətli kağızlarına 1,7 milyard dollar sərmayə yatırıb.

Prezident Administrasiyasının şöbə müdiri müsahibələrində Azərbaycanın son illər sosial-iqtisadi sahədə qazandığı uğurlardan danışaraq, hökumətin qeyri-neft sektorunun inkişafı istiqamətində atdığı addımlardan danışıb. Azərbaycan bu baxımdan da Çin ilə sənaye, kənd təsərrüfatı, turizm, İKT və digər istiqamətlərdə əməkdaşlığın genişlənməsində maraqlıdır.

**AZƏRTAC**

# Bakıda Ümumdünya Qalxanvarı Vəzi Gününə həsr edilmiş elmi konfrans keçirilib





**Aprelin 13-də Bakıda Azərbaycan Endokrinologiya, Diabetologiya və Terapevtik Təlimat Assosiasiyasının və Avropa Trioid Assosiasiyasının birgə təşkilati dəstəyi ilə Ümumdünya Qalxanvarı Vəzi Gününə həsr edilmiş beynəlxalq elmi-praktik konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Diabet Federasiyasının (İDF) üzvü, Azərbaycan Endokrinoloqlar Elmi Cəmiyyətinin sədri, professor Vəleh Mirzəzadə tədbirdə çıxış edib. O qeyd edib ki, Bakıda üçüncü dəfə keçirilən elmi-praktik konfransda yerli həkimlərlə yanaşı, beynəlxalq aləmdə tanınmış mütəxəssislər, o cümlədən Avropa Trioid Assosiasiyasının 2018-2021-ci illər dövrü üçün prezidenti, danimarkalı professor Laslo Xeqedyus da iştirak edir.

Onun sözlərinə görə, yod çatışmazlığı ilə bağlı xəstəliklər kardioloji, nevroloji, ginekoloji, oftalmoloji, qastroenteroloji və bir sıra başqa problemlərə gətirib çıxarır. V.Mirzəzadə daha sonra qeyd edib ki, konfransda keçiriləcək tematik müzakirələr təcrübə mübadiləsinə şərait yaradacaq, həkimlərin qalxanvarı vəzinin müalicəsi üzrə birgə fəaliyyətini daha da təkmilləşdirməyə töhfə verəcək.

Konfransın elmi hissəsi tematik məruzələrlə davam edib. Professor Laslo Xeqedyusun "Hipotireoz və hipertireoz hallarında sürəkli xəstəlik və ölüm", Milli Onkologiya Mərkəzinin baş direktorunun birinci müavini professor Əziz Əliyevin "Tireoid xərçənginin cərrahi müalicəsi", italiyalı professor Enriko Papininin "Autoimmun tireoiditin (Haşimoto tireoditinin) cərrahi və qeyri-cərrahi müalicə üsulları" mövzusunda məruzələri dinlənilib.

Məruzələr başa çatandan sonra geniş müzakirələr aparılıb.

Qeyd edək ki, 2009-cu ildən etibarən hər il bütün ölkələrdə keçirilən Ümumdünya Qalxanvarı Vəzi Gününün əsas məqsədi alimlərin, tibb işçilərinin və ictimaiyyət nümayəndələrinin diqqətini bu xəstəliklə bağlı problemlərə cəlb etmək və onların həlli yollarını müzakirə etməkdir.

Ümumdünya Qalxanvarı Vəzi Günündə tibbi təşkilatlar xüsusi aksiyalar - konfranslar, forumlar, seminarlar keçirir, həmin tədbirlərdə xəstəliklərin diaqnostikası, müalicəsi və profilaktikası məsələləri müzakirə edilir.

2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" Qanun qəbul edib. Bu Qanun 2003-cü ildə qüvvəyə minib. Səhiyyə Nazirliyi tərəfindən görülmüş tədbirlər nəticəsində ölkəmizdə yod çatışmazlığı ilə bağlı xəstəliklərin sayı bir neçə dəfə azalıb.

**AZƏRTAC**

# Qəbələdə sakinlərlə görüş



**Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Qəbələ rayonunda Qəbələ, Şəki və Oğuz rayonlarının sakinlərini fərdi qaydada qəbul edib.**

Qəbulda sosial təminat, əlilliyin qiymətləndirilməsi, məşğulluğun təminatı, özünüməşğulluq proqramına və peşə hazırlığına cəlb olunma, əmək hüquqlarının müdafiəsi, bərpa müalicəsi xidmətləri və reabilitasiya vasitələri ilə təmin edilmə və s. kimi məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib. Müraciətlərdə ifadə olunan məsələlərin hər biri nazirliyin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılıb, qaldırılan məsələlərin həlli üçün qanunvericilik çərçivəsində müvafiq tədbirlərin görülməsi nəzərdə tutulub. Sorğu xarakterli müraciətlərə bağlı izahatlar, bir sıra şəxslərin müraciətləri əsasında onlara ərazidəki vakant iş yerlərinə göndərişlər verilib. Ayrı-ayrı şəxslərin mövcud potensialları müqabilində özünüməşğulluq proqramına, əlilliyi olan şəxslərin bərpa müalicəsi xidmətlərinə cəlb edilməsi üçün onların qeydiyyata alınması tapşırılıb.

Vətəndaşlar bu gün ölkədə aparılan siyasətin ilk növbədə vətəndaş rifahına xidmət etməsindən, bu siyasətin əsasında sosial ədalət və humanizm prinsiplərinin dayanmasından razılıqla söz açıblar. Onlar bu siyasətə, ardıcıl xarakter alan mühüm sosial müdafiə tədbirlərinə, regionların inkişafı, bölgələrdə yeni iş yerlərinin açılması və məşğulluq imkanlarının artırılması məqsədilə atılan əhəmiyyətli addımlara görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

**"Respublika".**

# "The Jakarta Post" qəzetində Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi barədə xüsusi məqalə dərc olunub

**İndoneziyanın ingilis dilində nəşr edilən nüfuzlu "The Jakarta Post" qəzeti Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi barədə xüsusi məqalə dərc edib.**

AZƏRTAC xəbər verir ki, aprelin 12-də qəzetin internet versiyasında yerləşdirilən məqalə "Həftənin söhbəti: Azərbaycan 10 milyon klubuna daxil oldu" adlanır. Bildirilir ki, aprelin 6-da Bakıdakı xəstəxanada dünyaya gələn Mehriban Həsənova Azərbaycanın 10 milyonuncu vətəndaşı olub.

Məqalədə bu xəbərin ölkə əhalisi tərəfindən böyük sevinclə qarşılandığı və Azərbaycanın 10 milyon əhalisi olan ölkələr klubuna daxil olması ilə əlaqədar hər yerdə bayram tədbirlərinin keçirildiyi vurğulanır. Bu barədə xəbərin isə qəzetə Azərbaycanın Cakartadakı səfirliyi tərəfindən verildiyi qeyd edilir.

Ölkəmizin İndoneziyadakı müvəqqəti işlər vəkili Ruslan Nəsibovun sözlərini sitat gətirən qəzet yazır: "Aprelin 6-da Bakıda Mehriban Həsənovanın dünyaya gəlməsi ilə biz 10 milyon əhalisi olan ölkəyə çevrildik. Bununla biz əhalisinin sayına görə dünyanın 90-cı ölkəsi olduq".

Vurğulanır ki, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan xalqını və yeni doğulan Mehribanın valideynlərini təbrik ediblər. Prezident İlham Əliyev şəxsən körpənin valideynləri ilə görüşüb.

Məqalədə ölkəmiz haqqında verilən əlavə məlumatda Azərbaycanın Cənubi Qafqaz regionunun ən böyük dövləti olduğu, İndoneziya ilə sıx dostluq münasibətləri saxladığı və burada əsasən müsəlmanların yaşadığı qeyd edilib. Bildirilib ki, həm Azərbaycan, həm də İndoneziya Qoşulmama Hərəkatının və İslam Əməkdaşlıq Təşkilatının üzvləridir, həmçinin müxtəlif beynəlxalq forumlarda six əməkdaşlıq edirlər.

**AZƏRTAC**

# Son bir ildə: Prezidentin fəaliyyətinin başlıca məqamları

(əvvəli 1-ci səhifədə)

Əlbəttə, Prezidentin atdığı addımlar bütövlükdə ölkənin sosial-iqtisadi inkişafı üçün ciddi təkandır. Bu baxımdan son bir ildə reallaşan iqtisadi islahatlar, gömrük və vergi sahəsində atılan addımlar büdcə daxilolmalarına öz müsbət təsirini göstərib. Belə ki, 2019-cu ilin birinci ayında vergi orqanları büdcəyə plandan əlavə 80 milyon manatdan çox, gömrük orqanları isə 20 milyon manatdan çox vəsait keçiriblər.

Bunlarla yanaşı, keçən bir il müddətində sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi xüsusi əhəmiyyətə malikdir. Bu addım həm sahibkarların daha sərbəst fəaliyyətini təmin edir, həm də Azərbaycanda sərmayə qoyuluşu üçün uyğun mühitin mövcudluğu təsdiq olunur. Sirr deyil ki, hazırda müstəqilliyini əldə etmiş bir çox dövlətlərə xarici investorlar sərmayə qoymağa risk etmirlər. Onlar etibarlı mühit və yüksək təminat istəyirlər. Azərbaycanda belə bir mühitin olduğunu indi hər kəs qəbul edir. Bu səbəbdəndir ki, son bir ildə də Azərbaycan regionda ən çox xarici sərmayə qoyulan ölkə statusunu qoruyub saxlaya bilib. Cənubi Qafqazın digər ölkələrinə sərmayə qoyuluşu yüksək deyil.

Qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması da son bir ilin nailiyyətləri sırasında özəl yer tutur. Bu məsələ həm iqtisadiyyatın şaxələnməsi, həm də innovasiyaların çevik şəkildə müxtəlif sahələrə tətbiq edilməsi aspektində önəm kəsb edir. Buraya ixrac əməliyyatlarının maliyyələşdirilməsi və real sektora investisiya qoyuluşlarının sürətləndirilməsini də əlavə edə bilərik. Özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində atılan mühüm addımları da unutmaq olmaz.

### İqtisadiyyat və özəl sektor: səmərəli proqramlar, real islahatlar...

Bütün bunların reallaşmasında İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondunun təsis edilməsinin (dövlət başçısının 2018-ci il 31 iyul tarixli Fərmanı ilə) ciddi rolu olduğunu qeyd etmək gərəkdir. Mütəxəssislər əmindirlər ki, Fondun yaradılması həm də sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli kredit vəsaiti hesabına maliyyələşdirilməsində mühüm əhəmiyyət daşıyır. Rəqəmlər bu fikri təsdiq edir. Belə ki, 2018-ci ildə Fondun xətti ilə 999 sahibkara 160,0 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb. Bundan başqa, İpoteka və Kredit Zəmanəti Fondu ölkə bankları tərəfindən kreditləşdirilən 277,0 milyon manat məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib. Həmin Fond 17,0 milyon manat məbləğində kreditlərə bağlı zəmanət dəstəyi göstərib.

Əlamətdardır ki, Prezident Azərbaycan sahibkarlarına xarici ölkələrə ixrac missiyalarını genişləndirmək sahəsində də ciddi dəstək verib. Bunun üçün artıq Belarus, Çin, Ukrayna, Latviya və Polşada Azərbaycan Ticarət evləri fəaliyyətə başlayıb. Yaxın gələcəkdə Birləşmiş Ərəb Əmirliklərində və Rusiyada da Azərbaycan Ticarət evlərinin açılması nəzərdə tutulur.

Ötən bir ildə sənaye potensialının inkişafı ilə bağlı əhəmiyyətli addımlar atılıb. Nəticədə, həmin sahədə göstəricilərin yüksək dinamikasına nail olunub. Bütövlükdə keçən müddətdə sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 9,1 faiz artıb. Bu bağlılıqda investisiya təşviqi proqramının həyata keçirilməsi maraq kəsb edir. Həmin çərçivədə həyata keçirilən layihələrin dəyəri artıq 2,8 milyard manatdır. Etiraf etmək lazımdır ki, bu, kifayət qədər yüksək rəqəm olmaqla hətta bir sıra ölkələrin dövlət büdcəsindən belə çoxdur.

Sirr deyil ki, Prezident İlham Əliyev həmişə regionların sosial-iqtisadi inkişafına xüsusi diqqət yetirib. Bu istiqamətdə həyata keçirilən dövlət proqramları qeyri-neft sektorunun inkişafına və regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə böyük yardım göstərir. O cümlədən sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması və investisiya qoyuluşunun artması prosesi gedir. Regionlarda yeni müəssisələrin, iş yerlərinin açılması və əhalinin məşğulluğunun artırılması üçün çox əlverişli şərait yaranır. Bunun nəticəsində bütövlükdə yoxsulluq səviyyəsi sürətlə azalır.

Məsələn, son bir ildə regionların III sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində bölgələrdə əhəmiyyətli infrastruktur layihələri icra edilib. Bunlarla yanaşı, regionların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması ilə bağlı İlham Əliyevin 2019-cu il 29 yanvar tarixli fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilib. Yalnız 2018-ci ildə Prezident ölkənin bölgələrinə 24 səfər edib.

Nəhayət, regionlarla bağlı vəziyyətdə qeyd edək ki, 2018-ci ildə kənd təsərrüfatı sahəsində çalışanlara 370,0 milyon manat məbləğində subsidiya və güzəştlər verilib. Prezidentin birbaşa tapşırığı ilə pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük, çayçılıq, sitrus meyvəçiliyi, çəltikçilik və arıçılığın dirçəldilməsi, fındıq, badam, xurma, zeytun, nar bağlarının genişləndirilməsi naminə həyata keçirilən proqramlar öz müsbət nəticələrini verməkdədir. Bunlardan başqa, regionlarda "ASAN xidmət" mərkəzləri açılıb və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) yaradılıb.

Bütün bunlar Prezidentin daxili siyasətdə həyata keçirdiyi proqramların yalnız bir qismidir. Onu vurğulayaq ki, xarici sosioloji araşdırma mərkəzləri də dövlət başçısının fəaliyyətinə böyük maraq göstərirlər. Məsələn, Fransanın "Opinion Way" şirkəti 2019-cu ilin mart ayında Azərbaycanda rəy sorğusu keçirib. Verilən suallardan biri belə olub: "Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatları necə qiymətləndirirsiniz?". Sorğuda iştirak edənlərin 90,5 faizi bu suala müsbət cavab verib. Ümumilikdə respondentlərin 85,1 faizi Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri müsbət qiymətləndiriyini bildirib.

### Xarici siyasət: fitri diplomatiya nəzakətinə və diplomatiklik istedadına malik Prezident

Aparılan sosioloji araşdırma cəmiyyətin xarici siyasətdə atılan addımları da tam dəstəklədiyini nümayiş etdirib. Bu sırada Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı Konvensiyanın imzalanması ayrıca vurğulanmalıdır. Bu sənədin imzalanmasında Azərbaycanın tutduğu ədalətli və obyektiv mövqe böyük rol oynayıb. Prezident İlham Əliyev bununla bağlı ifadə edib: "Bu gün Xəzərdə təhlükəsizlik və sabitlik bizim imzaladığımız Konvensiya ilə müəyyən olunur".

Əlbəttə, son bir ildə xarici siyasətin bütün prioritet istiqamətlərində uğurlu addımlar atılıb. Bütövlükdə milli maraqlara söykənən xarici siyasət kursu davam etdirilib. Müxtəlif formatlar çərçivəsində aparılan danışıqlar nəticəsində ölkəmizin dünya birliyində nüfuzu daha da artıb. Həmin danışıqlar dünyanın bir çox dövlətləri ilə həyata keçirilib. Bundan başqa, beynəlxalq tədbirlər çərçivəsində mühüm müzakirələr həyata keçirilib. Xarici ölkələrə edilən səfərlər bu aspektdə ciddi rol oynayıb. Prezident İlham Əliyev 2018-ci ildə xarici ölkələrə 16 səfər edib. Eyni zamanda, xarici ölkələrin 16 dövlət və hökumət başçısı həmin il Azərbaycana səfərə gəlib.

Dövlət başçısı İlham Əliyevin real-laşdırdığı uğurlu xarici siyasət Azərbaycanın dünya dövlətləri və beynəlxalq güc mərkəzləri ilə səmərəli, işgüzar və bərabərhüquqlu münasibətlərini daha da möhkəmləndirməyə xidmət edib. Azərbaycanla Avropa İttifaqı arasında müxtəlif istiqamətlər üzrə əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açan tərəfdaşlıq sazişinin imzalanması üzərində iş gedir. Sənədin bu il imzalanacağı gözlənilir.

Qeyd etmək lazımdır ki, Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlığın prioritetlərinə dair 2018-ci il iyulun 11-də sənəd imzalanıb. Həmin sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər də yer alıb. Burada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunub. Bundan başqa, NATO-nun Brüssel zirvə görüşündə qəbul edilən yekun bəyannamədə də Azərbaycanın ərazi bütövlüyü dəstəklənib.

Təbii ki, son bir ildə Prezident İlham Əliyev xarici siyasətdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsinə xüsusi diqqət yetirib. Aktiv diplomatik fəaliyyət nəticəsində Ermənistanın yeni rəhbərliyinin danışıqların formatını dəyişdirmək cəhdlərinin qarşısı alınıb. Vyanada baş tutan müzakirələrdə bu fakt öz təsdiqini tapıb. Azərbaycan Dağlıq Qarabağ separatçılarının danışıqlarda iştirakına imkan verməyib.

Xarici siyasətin uğurlarından biri də 2018-ci ildə Bakıda Qoşulmama Hərəkatının xarici işlər nazirləri səviyyəsində konfransın keçirilməsidir. 2019-cu ildə isə Azərbaycanda Qoşulmama Hərəkatının zirvə görüşü keçiriləcək. Əlbəttə, bu hadisə Azərbaycanın nüfuzunun daha da artmasına xidmət edəcək.

Dövlət başçısının son bir ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması və Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətlərində həyata keçirdiyi proqramları xüsusi qeyd etmək gərəkdir. Azərbaycan Ordusu bu addımların sayəsində daha güclü olub. Onun döyüş imkanları xeyli artıb. Bunu artıq dünyanın böyük dövlətlərinin liderləri belə etiraf edirlər. Ermənistanın Azərbaycana bu sahədə mane olmaq cəhdləri puç olub. Azərbaycan Ordusu ən müasir silahlarla təmin etmək prosesini bütün sürəti ilə davam etdirir.

Bu baxımdan 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisinin düşməndən azad edilməsi əlamətdar hadisə kimi qiymətləndirilməlidir. Təsadüfi deyil ki, beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri 2018-ci ildə dünyada ən güclü 50 ordu sırasında yer tutur.

Ölkə rəhbərinin son bir il ərzində həyata keçirdiyi siyasətə xarici ekspertlər də yüksək qiymət verirlər. Məsələn, Rusiya Siyasi Tədqiqatlar İnstitutunun baş direktoru, politoloq Sergey Markov vurğulayıb ki, son bir ildə Azərbaycanın xarici siyasətində çoxvektorluluq davam edib. Politoloq ifadə edib: "Azərbaycanın bütün qonşuları ilə - Rusiya, Türkiyə və İranla, habelə iri geosiyasi subyektlərlə - Avropa İttifaqı, ABŞ və Çin ilə çox gözəl münasibətləri var. Avropa İttifaqı ilə "Tərəfdaşlığın prioritetləri haqqında Saziş" imzalanıb. Xəzər dənizinin hüquqi statusuna dair imzalanmış Konvensiya Azərbaycan rəhbərliyinin bu məsələyə yanaşmasını əks etdirir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu yanaşmalar Rusiyanın yanaşmalarına əsla zidd deyil və çox cəhətdən, üst-üstə düşür. Bu, Xəzərdə fəallığın inkişaf etdirilməsi üçün, Xəzər regionunun siyasi mübarizə meydanına çevrilməməsi üçün möhkəm hüquqi təməl yaradır".

Rusiyalı ekspert sözlərinə davam edərək bildirib ki, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin iştirakçılarından biridir. Bundan əlavə, TANAP - Transanadolu qaz kəməri və Cənub Qaz Dəhlizinin inkişaf etdirilməsində Azərbaycanın oynadığı həlledici rolu heç kəs inkar edə bilməz.

S.Markov xüsusi olaraq onu da qeyd edib ki, Azərbaycan regionda dinlərarası münaqişələrdən yan keçməyə nail olub. Bunun səbəbini isə o, belə izah edib: "Bu, Prezident İlham Əliyevin böyük diplomatikliyə malik olmasının ifadəsidir... Bundan əlavə, o, fitri diplomatiya nəzakətinə və diplomatiklik istedadına malikdir... Azərbaycan həm bu mürəkkəb regionda öz mövcudluğunu yumşaltmağa, həm danışıqlara qoşulmamağa, həm də danışıqlar prosesinə kömək etməyə nail olur". Fikirlərinin təsdiqi kimi, rusiyalı ekspert Rusiya və ABŞ-ın hərbi rəhbərlərinin Bakıda apardıqları müzakirələri də göstərir.

S.Markovun fikrincə, Azərbaycanda böyük beynəlxalq forumların, o cümlədən Bakı Humanitar Forumunun keçirilməsi mühüm faktdır, Azərbaycan bu forumlarda əməkdaşlıq və multikulturalizm ideyalarını təbliğ edir. S.Markov vurğulayıb: "İdentikliklərin qarşı-qarşıya gəldiyi müasir dünyada bu çox vacibdir. Multikulturalizm Azərbaycanın ictimai-dövlət ideologiyasıdır. Bu fakt ölkə daxilində də təzahür edir, burada müxtəlif etnik və dini qruplar arasında vətəndaş həmrəyliyi və dialoq fəal inkişaf edir. Bu multikulturalizm ideologiyasının xarici siyasətdə də tətbiq edilməsi sayəsində Azərbaycan bir-biri ilə münaqişə vəziyyətində olan ölkələr arasında dialoqa kömək edə bilir".

Beləliklə, Azərbaycan Prezidentinin son bir ildə göstərdiyi fəaliyyət xalqın doğru seçim etdiyini tam təsdiqləyir. Konkret faktlar sübut edir ki, Azərbaycan bütün istiqamətlərdə ciddi nailiyyətlər əldə edib. Ən əsası isə odur ki, xalq öz rəhbərinə inanır, onun siyasətini dəstəkləyir və bundan sonra da belə olacaq!

**Newtimes.az**

# Rus Dram Teatrının səhnəsində "Şeytan əməlləri" tamaşasının premyerası olub

**Aprelin 13-də Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında Mədəniyyət Nazirliyinin dəstəyi ilə Xalq yazıçısı Elçinin eyniadlı pyesi əsasında səhnələşdirilmiş "Şeytan əməlləri" tamaşasının premyerası olub.**

AZƏRTAC xəbər verir ki, Xalq yazıçısı Elçin jurnalistlərə müsahibəsində öz təəssüratlarını bölüşüb. O deyib: "Uzun illərdir ki, mən Azərbaycan və rus dram teatrlarının kollektivləri ilə sıx əməkdaşlıq edirəm. Bu teatrlar mənim pyeslərim üzrə yüksək səviyyədə tamaşalar hazırlayır. Rus Dram Teatrında əvvəllər mənim pyeslərim əsasında 7-8 tamaşa səhnəyə qoyulub. "Şeytan əməlləri" mənim son əsərlərimdən biridir. Bu, absurd janrında yazılmış ilk pyesin quruluşudur. Bu janr incəsənətdə ayrıca müstəqil istiqamətdir. Tamaşaya quruluşu Finlandiyada yaşayan istedadlı rejissor Kamran Şahmərdan verib. Biz əməkdaşlıq üçün onu müntəzəm olaraq dəvət edirik. O, həmçinin mənim









eyniadlı pyesim əsasında səhnələşdirilmiş "Cəhənnəm kirayənişinləri" tamaşasının quruluşçu rejissorudur".

Rejissor Kamran Şahmərdan jurnalistlərə tamaşa üzərində iş prosesindən danışıb: "Şeytan əməlləri" əsərində əbədi və bütün zamanlar üçün aktual olan xeyir və şər mövzusu qaldırılır. Absurd janrı Azərbaycan teatrı üçün yenidir. Biz çox çalışıb, çox düşünmüşük. Mən Elçinin yaradıcılığına ilk dəfə deyil ki, müraciət edirəm və əminəm ki, bu tamaşa da uğur qazanacaq".

Sonra tamaşaçılar tərəfindən böyük maraqla qarşılanan "Şeytan əməlləri" tamaşası nümayiş etdirilib.

Rolları Xalq artisti Məbud Məhərrəmov, Əməkdar artist Mələk Abbaszadə, Əməkdar mədəniyyət işçisi Rüfət Nəzərov, aktyorlar Teymur Rəhimov, Zaur Terequlov, Rumiyyə Ağayeva və başqaları ifa ediblər.

Tamaşanın dekorasiya və geyim rəssamı Valeri Polunovski (Rusiya), musiqi tərtibatçısı Azərbaycanın Əməkdar mədəniyyət işçisi Vladimir Neverov, videoinstalyasiyaçı Aqil M.Quliyev, xoreoqraf Kamilla Hüseynovadır.

Qeyd edək ki, Xalq yazıçısı Elçinin ümumi tirajı 5 milyon nüsxə olan kitabları 20-dən çox xalqların dilinə tərcümə edilib, dünyanın bir çox ölkələrində nəşr olunub. O, bir sıra roman, pyes və hekayələrin müəllifidir. Elçinin ssenarisi əsasında bir neçə bədii film - "Baladadaşın ilk məhəbbəti" (1974), "Arxadan vurulan zərbə" (1977), "Gözlə məni" (1980), "Gümüşü furqon" (1982), "Bağ mövsümü" (1985), "Milli bomba" (2004), "Hökmdarın taleyi" (2008) və digər ekran əsərləri lentə alınıb.

**AZƏRTAC**

*Dövlət Komitəsinin sədri:*

## Ukraynada Azərbaycan dili məktəblərinin sayı artırılmalıdır

**Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun rəhbərlik etdiyi nümayəndə heyəti Kiyevə səfəri çərçivəsində Ukrayna Regionlararası İşçiləri İdarəetmə Akademiyasında Kiyev Azərbaycanlıları Konqresinin nəzdində fəaliyyət göstərən Azərbaycan bazar günü məktəbində olub.**

AZƏRTAC xəbər verir ki, Dövlət Komitəsinin nümayəndə heyəti diaspor təşkilatlarının rəhbərləri və fəalları ilə birgə ümummilli lider Heydər Əliyevin akademiyadakı büstü önünə tər çiçəklər düzüblər.

Sonra F.Muradov Azərbaycan bazar günü məktəbində yaradılan şəraitlə tanış olub, dərs prosesini izləyib. Bildirilib ki, Ukraynada yaşayan soydaşlarımızın doğma dilimizdə biliklərini artırmaq üçün şagirdlərə ana dili, tariximiz öyrədilir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana miras qoyduğu təhsil strategiyasının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən komitə sədri bildirib ki, Ukraynada Azərbaycan dili məktəblərinin sayı artırılmalıdır. Soydaşlarımızın Azərbaycan dili məktəblərinə cəlb edilməsinin kütləviliyi təmin olunmalıdır. "Azərbaycan dili məktəblərində hansı dərsliklər çatmırsa, siyahı tutulsun, komitə tərəfindən yardım ediləcək", - deyə sədr əlavə edib.



Sonda Dövlət Komitəsi tərəfindən məktəbə dərs ləvazimatları, kompüter hədiyyə edilib.

**AZƏRTAC**

## Gənclər ordu sıralarına yollanır



**Son illərin ən böyük nailiyyətlərindən biri ordumuzun daha da möhkəmlənməsi, qüdrətlənməsi və mütəşəkkil hərbi qüvvəyə çevrilməsidir. Vurğulamaq lazımdır ki, ölkəmizin hər yerində olduğu kimi, Füzuli rayonunda da ordu quruculuğu sahəsində təqdirəlayiq işlər aparılır, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm irəliləyişlər müşahidə olunur.**

Aprelin 1-dən ölkəmizdə dövlət başçısının sərəncamına əsasən gənclərin növbəti həqiqi hərbi xidmətə çağırışına başlanmışdır. Rayonda gənclərin ordu sıralarına yola salınması uğurla davam edir, Vətənə sipər oğullar coşqu ilə əsgəri xidmətə yola düşürlər.

Biz Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon idarəsində olarkən qəlbləri oxşayan yaz səhəri idi. Milli musiqimiz dalğa-dalğa ətrafa yayılır, sabahın əsgərləri üçrəngli Azərbaycan bayrağını qürurla dalğalandırır, müharibə və əmək veteranları, valideynlər dəstə-dəstə idarəyə doğru axışır, hiss olunurdu ki, gənclər xidmət dövründə Vətənin ərazi bütövlüyünü ləyaqətlə qoruyacaqlar.

Gənclərin ordu sıralarına yolasalınma mərasimində danışıq üçün ilk söz **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon idarəsinin rəisi, polkovnik-leytenant Turan Əliyevə** verilir. O, öncə mərasimə qatılan çoxsaylı insanları salamlayır. Daha sonra qəlbindən süzülüb gələn xoş sözləri onlarla bölüşür:

—Azərbaycan xalqı öz ordusunu sevir, ona arxalanır, ona güvənir, onun gücünə inanır. Fəxr edirik ki, bu gün bizim güclü dövlətimiz, güclü ordumuz vardır. Bu ordunun gücü isə mənsub olduğu güclü texnikanın: təyyarələrin, gəmilərin, tankların, artilleriya qurğularının, hava hücumundan müdafiə komplekslərinin çoxluğu, müasirliyi, effektivliyi ilə yanaşı, həm də şəxsi heyətinin peşəkarlığında, vətənpərvərliyində, mənəvi-psixoloji, siyasi, fiziki hazırlığının yüksəkliyindədir. Ordumuzun gücü həm də xalq ilə onun monolit birliyində, hər bir döyüşçünün ruh yüksəkliyindədir. Bu gün xalqımızın və dövlətimizin yalnız bir şüarı vardır: Hər şey ordu üçün, hər şey qələbə üçün!

Müasir, mütəşəkkil ordunu yaratmaq ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Bu gün Azərbaycanın güclü ordusu vardır. Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur. Biz bunun bir daha 2016-cı ilin Aprel döyüşlərində şahidi olduq.

Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatında baş verən yeni keyfiyyət dəyişiklikləri fonunda ilk növbədə ölkəmizin müdafiə potensialının qüdrətlənməsi daha aydın görünür.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğu ilə bağlı demişdir: **"Ordu müstəqil Azərbaycanımızın ən mühüm atributlarından biridir. Əlbəttə, hər kəs üçün sirr deyil ki, güclü ordu ancaq iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə olur. Bizim də istəyimiz məhz Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirmək, iqtisadi islahatları davam etdirmək və beləliklə, həm ölkəmizi inkişaf etdirmək, həm də ordumuzu daha yüksək səviyyəyə gətirib çıxarmaqdır".**

Gənclərin ordu sıralarına yolasalınma mərasimində valideynlər adından **Əli İsmayılov** çıxış edərək dedi:

—Azərbaycan öz ordusunu daim gücləndirir. Neçə illərdir ki, torpaqlarımızın 20 faizindən çoxu erməni daşnaklarının işğalı altındadır. Biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı azad edək. Biz sülhün tərəfdarıyıq. Azərbaycan sülh siyasəti aparır. Ancaq, eyni zamanda, heç vaxt barışa bilmərik ki, ərazilərimiz işğal altında qalsın. Əminliklə demək olar ki, qələbə bayrağımız çox tezliklə Kəlbəcər, Şuşa, Qubadlı, Laçın və işğal altında olan digər ərazilərdə dalğalanacaqdır.

Vaxt gəlib çatır, meydan yenidən musiqiyə verilir. Gənclərdən Cəlal Xəlilov, Ruslan Hüseynov, Nihat İsmayıllı və başqaları mərasim iştirakçılarının xeyir-duası və böyük coşqu ilə əsgəri xidmətə yola salınırlar.

**Qədir ASLAN,**
**"Respublika".**

# Təhsil bütöv bir xalqı dəyişmək gücünə malik fenomendir

**Yaşadığımız əsrdə təhsilin qarşısında bir sıra aktual problemlər durur ki, onlardan biri də şəxsiyyətin formalaşması məsələsidir. Haqlı olaraq zaman-zaman bu barədə müxtəlif fikirlər irəli sürülmüş, fərqli nəzəriyyələr yaranmışdır. Təhsil müasir dünyanın inkişaf axarında təkcə insanları deyil, bəlkə də bütöv bir xalqı dəyişmək gücünə malik fenomendir. Bu səbəbdən də dünya ölkələri təhsilin səviyyəsini artırmaq üçün yeni-yeni üsullar tətbiq edir, büdcələrinin böyük hissəsini təhsilin inkişafına yönəldirlər. Fransız alimi Pol Riçer təhsilə dəyər verərkən demişdir: "Təhsil - çörəkdən sonra bir ölkənin ən böyük ehtiyacıdır".**



Azərbaycan dövləti də millətin gələcəyi olan təhsilin inkişafını daim diqqət mərkəzində saxlamış, bu istiqamətdə məqsədyönlü layihələr həyata keçirilmişdir. Ümummilli lider respublikaya rəhbərliyinin bütün dövrlərində təhsili dövlətin prioriteti saymış, təhsilə, müəllimə yüksək dəyər vermiş, onun qarşısında böyük vəzifələr qoymuşdur. Müstəqillik illərində Azərbaycan təhsilinin gələcəyi barədə danışarkən demişdir: "Biz keçmişdən fərqli olaraq indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc Azərbaycanın gələcək fəal vətəndaşı gərək, birincisi, mənəviyyatca saf olsun. Bu səbəbdən mənəvi saflıq gərək ali və orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar ki, vətənpərvərliyi gənclərə də aşılaya bilsinlər...".

1969-cu ildə ilk dəfə hakimiyyətə gəldiyi dövrdən etibarən Azərbaycanda orta və ali təhsilin yüksək səviyyədə inkişafı, o cümlədən ölkədən kənarda kadr hazırlığına başlanılmışdı. Ümummilli lider Heydər Əliyev 1970-1980-ci illərdə SSRİ-nin 50-dən artıq şəhərinin 170-dən çox ali məktəbində 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasını təmin etmişdi. Azərbaycanda həmin dövrdə ümumtəhsil məktəblərinin sayı 3 dəfə artırılmış, 350 mindən çox şagird yeri olan 849 məktəb tikilib istifadəyə verilmiş, ali təhsil müəssisələrinin də sayı artmış, burada təhsil alanların sayı çoxalmışdı. Məhz ulu öndərin qətiyyəti sayəsində Azərbaycanda sosial-iqtisadi və siyasi idarəetmə sahələrində milli kadr potensialı formalaşmışdı. Bu potensial Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkə üçün son dərəcə böyük əhəmiyyət kəsb etdi, çünki hər bir ölkənin inkişafı üçün onun hazırlıqlı kadr potensialının olması vacib şərtlərdən biridir. Heydər Əliyev hələ o zaman gələcəkdə Azərbaycanın müstəqil bir dövlət olacağını düşünürdü. Sonralar o, bunu açıq şəkildə belə ifadə etmişdi: "Bəli, mən bu işləri görərkən həm də gələcək müstəqil Azərbaycan üçün fəaliyyət göstərirdim və gələcək müstəqil Azərbaycan dövlətinin əsaslarını yaradırdım".

Heydər Əliyev milli dövlət quruculuğu prosesində "Elmə, təhsilə göstərilən yüksək qayğı xalqın xoşbəxt gələcəyinə qoyulan təminatlı sərmayədir" meyarı ilə çıxış edirdi. Ulu öndər deyirdi: "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə də ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən sahədir".

Sevindirici haldır ki, dövlət rəhbəri kimi fəaliyyət göstərdiyi müddətdə Azərbaycanda dinamik iqtisadi inkişafın sürətləndirilməsinə, cəmiyyət həyatının bütün sahələrində mütərəqqi islahatların aparılmasına etibarlı təminat yaradan cənab İlham Əliyev elm və təhsil sahəsindəki problemləri də diqqət mərkəzində saxlayaraq ulu öndərin bu sahədə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin etdi. Yeni əsrin çağırışlarına cavab verə biləcək savadlı insanların yetişməsi, informasiya və telekommunikasiya texnologiyalarının sürətli yüksəlişinin təmin edilməsi, respublikamızın bu sahədə əlverişli tranzit ölkəyə və regional mərkəzə çevrilməsi və s. kimi məsələləri fəaliyyətinin ilk dövrlərindən diqqətdə saxlayan dövlət başçısı dəfələrlə bildirmişdir: "Müasir dünyada bilik və yeni texnologiyalar olmasa, uğur qazanmaq mümkün deyildir...". O, Prezident seçildikdən sonra ilk xarici səfəri BMT-nin mandatı altında Cenevrədə təşkil edilmiş İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitinə olmuş və 2004-cü il 31 avqust tarixində qüvvəyə minmiş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı haqqında" sərəncamı ölkəmizdə həm təhsilin, həm də informasiya texnologiyalarının inkişafı baxımından ən mühüm sənədlərdən biri kimi dəyərləndirilmişdir. İstənilən sahənin inkişafı o halda özünü doğrulda bilər ki, ondan səmərəli istifadə edən kadrlar olsun. Cənab İlham Əliyev bu zərurəti çox düzgün qiymətləndirdiyi üçün məktəblərin kompüterləşdirilməsini, gənclərin bu sahəni dərindən mənimsəməsini mühüm amil kimi önə çəkir və bu sahənin inkişafını vacib sayır.

2005-ci ildən etibarən Bolonya prosesinə qoşulmaqla Azərbaycan bir daha birmənalı şəkildə Avropa təhsil məkanına inteqrasiya prosesini dərinləşdirmək əzmini nümayiş etdirdi. Bolonya bəyannaməsinin müddəalarını həyata keçirmək üçün 2006-2010-cu illəri əhatə edən Tədbirlər Planı hazırlandı və Azərbaycanda ölkənin gələcək inkişaf modelinin və insan kapitalının formalaşmasına xidmət edən ümumtəhsil hərəkatı başlandı.

Ölkədə həyata keçirilən inkişaf strategiyası digər məsələlər kimi, təhsil sahəsində aktual problemlərin həlli istiqamətini də özündə əks etdirir. Dövlət başçısının imzaladığı fərman və sərəncamlarda pedaqoji kadrların işlə təmin edilməsi, kadr tələbatının ödənilməsi, pedaqoji profilli gənc mütəxəssislərin konkret iş yerlərinə göndərilməsi, bölgələrdə, ucqar kəndlərdə müəllim çatışmazlığı probleminin həlli və s. bu kimi aktual məsələlər önə çəkilir. "2005-2009-cu illər üçün ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə İnkişaf Proqramı" bu baxımdan xüsusi aktuallıq kəsb edir. Azərbaycan Respublikasında konseptual xarakterli sənədin - ümumi təhsilin konsepsiyası - Milli Kurrikulumunun qəbulu da Prezident İlham Əliyevin məqsədyönlü inkişaf strategiyası sayəsində milli təhsilimizin əldə etdiyi nailiyyətlərdən biridir. Ümumtəhsil məktəbləri üçün müasir tələblər səviyyəsində yeni dərsliklərin hazırlanması və şagirdlərə pulsuz paylanılması məsələləri də Prezidentin sosialyönümlü siyasətində mühüm yer tutur.

"Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqlarla təmin olunmasına dair İnkişaf Proqramı (2005-2009-cu illər)" bu sahədə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini təmin etmişdir. Cənab İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi kimi, ötən illərdə 1000-dən artıq yeni məktəb və əlavə korpuslar tikilmiş, həmçinin təhsil müəssisələrinin əsaslı təmiri və bərpası, maddi-texniki bazasının gücləndirilməsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır.

Hər bir müvəffəqiyyətli inkişafın əsasında bilik dayanır. Onun yaradıcısı, daşıyıcısı və tətbiq edəni isə insandır. Biliklərin əldə edilməsi və fəaliyyətdə tətbiqi üçün ən vacib amil yalnız təhsil hesab edilir. Məhz təhsil intellektual potensialın formalaşdırılmasında, maddi sərvətlərin insan kapitalına çevrilməsində müstəsna əhəmiyyət daşıyır. Bununla bağlı Prezident cənab İlham Əliyev uzaqgörənliklə belə söyləmişdir: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir".

Bu baxımdan Heydər Əliyev Fondunun da əsas fəaliyyət istiqamətlərindən biri kimi məhz təhsil sferasını seçməsi təsadüfi olmayıb, dünyanın müasir inkişaf stixiyasından irəli gəlir. Fondun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə respublikamızın müxtəlif bölgələrində reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı da müstəsna əhəmiyyət kəsb edir. Bu proqram təhsilin səviyyəsinə birbaşa təsir edən problemlərin həllinə - tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənmişdir. Proqram çərçivəsində tikilən və infrastrukturu yerli tələbata və imkana uyğunlaşdırılan bu məktəblər müasir avadanlıq, istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompüter avadanlığı ilə təchiz edilir. Ölkənin birinci xanımının ölkəmizin müxtəlif rayonlarında inşaat işlərinin gedişi ilə şəxsən tanış olması, mütəxəssislərin, yerli camaatın, şagirdlərin, müəllimlərin rəy və təkliflərini dinləməsi, bir sıra məktəblərin açılışında iştirakı bu prosesə böyük təkan vermişdir.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən proqramlar sırasında "Təhsilə dəstək" layihəsi də xüsusi əhəmiyyətə malikdir. Bu layihə - birbaşa tədrisin keyfiyyətinə təsir göstərən problemlərin həllinə yönəlmişdir və məktəbəqədər uşaq tərbiyə müəssisələrinin də yenidən qurulmasını əhatə edir.

Bu gün Azərbaycan dinamik inkişaf edir. Regionda lider dövlətə çevrilən məmləkətimizin beynəlxalq arenada nüfuzu artır. Onun iqtisadi qüdrəti gücləndikcə, dövlətimizin sosialyönümlü büdcəsi də çoxalır. Buna uyğun olaraq təhsilimizin səviyyəsini artırmaq üçün yeni-yeni metodlar tətbiq edilir, büdcəmizin mühüm bir hissəsi ölkənin ən böyük ehtiyacı olan təhsilin inkişafına yönəldilir, çünki ulu öndərin də söylədiyi kimi, "Təhsil millətin gələcəyidir!"

**Günel KAZIMOVA,**
**Müşfiqabad qəsəbəsi, Füzuli rayonu 50 saylı tam orta məktəbin direktoru.**

# Heydər Əliyev adına NEZ-də görüş

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlının rəhbərlik etdiyi nümayəndə heyəti Heydər Əliyev adına Neft Emalı Zavodunda (NEZ) müəssisə rəhbərliyi ilə görüş keçirib.**



ADNSU nümayəndələrini Neft Emalı Zavodunda görməkdən məmnun olduğunu deyən zavodun baş direktoru Elman İsmayılov universitetlə olan əməkdaşlıq əlaqələrindən danışıb. Hazırda ADNSU-nun 198 nəfər tələbəsinin zavodda istehsalat təcrübəsi keçdiyini deyən Elman İsmayılov onların hazırlıq səviyyəsindən razı qaldığını ifadə edib. Qeyd edib ki, zavodda çalışan 1206 nəfər ali təhsilli mütəxəssisdən 636-nın ADNSU məzunudur. Neft Emalı Zavodunda ixtisaslı kadrlara ehtiyac duyulduğunu qeyd edən E.İsmayılov ADNSU ilə əlaqələr sayəsində müəssisənin peşəkar mütəxəssislərlə təmin ediləcəyinə inandığını bildirib.

Səmimi qəbula görə, müəssisə rəhbərliyinə təşəkkürünü bildirən ADNSU-nun rektoru, professor Mustafa Babanlı tədbir iştirakçılarına universitetdə son dövrdə həyata keçirilən islahatlar haqqında məlumat verib. Universitetdə tədrisin keyfiyyətinin yüksəldilməsi, startap hərəkatına dəstək, elektron təhsil sisteminin tətbiqi, ingilisdilli ixtisaslar və s. barədə danışan rektor ölkə üçün peşəkar mütəxəssislərin hazırlanması üçün birgə əməkdaşlığın vacibliyini vurğulayıb.

Tədbirdə Heydər Əliyev adına Neft Emalı Zavodunun tarixi, fəaliyyəti, məqsədi və s. haqqında təqdimat nümayiş olunub.

Görüşün davamında zavodda istehsalat təcrübəsinə cəlb olunan ADNSU tələbələrilə görüş keçirilib. Əvvəlcə tələbələrə əməyin təhlükəsizliyi qaydaları haqqında məlumat verilib. Sonra Heydər Əliyev adına NEZ-in fəaliyyəti haqqında videoçarx nümayiş olunub. Zavodun baş direktoru Elman İsmayılov görüşün keçirilməsində məqsədin tələbələrin təcrübə prosesinin necə keçdiyi ilə maraqlanmaq, onların problemlərini dinləmək olduğunu bildirib.

Bu cür görüşün keçirilməsi üçün yaradılan şəraitə görə, müəssisə rəhbərliyinə öz minnətdarlığını bildirən rektor Mustafa Babanlı tələbələrə təcrübə müddətindən səmərəli şəkildə istifadə etməyi tövsiyə edib. Sonra tələbələrin sualları cavablandırılıb.

Daha sonra nümayəndə heyəti Heydər Əliyev adına NEZ-in yeni bitum qurğusu, həmçinin Katalitik-riforminq qurğusu ilə tanış olub.

**R.YUSİFLİ,**
**"Respublika".**

# Festival qalibləri mükafatlandırılıb

**Gənclər və İdman Nazirliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının təşkilatçılığı ilə XII "Tələbə baharı" Ümumrespublika tələbə yaradıcılıq festivalı keçirilib.**

Festivalda iştirak edən BMU-nun tələbələri milli rəqs (solo), müasir rəqslər (kollektiv) və klassik musiqi nominasiyaları üzrə II yerə layiq görülüblər.

**Universitetin rektoru, professor Havar Məmmədov** festivalda iştirak edən tələbələrlə görüşüb, onları göstərdikləri yüksək nəticələrə görə təbrik edib. Rektor çıxışında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin gənclər siyasətini möhtərəm



Prezidentimiz cənab İlham Əliyevin uğurla davam etdirdiyini, bu sahədə görülən işlər haqqında məlumat verib.

Rektor universitetlərin işinin yüksək təhsil verməklə bitmədiyini, tələbələrin hərtərəfli kadr kimi yetişməsində görməli olduğu işləri xüsusi vurğulayıb, bu missiyanı tələbə təşkilatları və dərnəkləri uğurla yerinə yetirdiyini bildirib. Professor H.Məmmədov festivalda BMU-nun yaradıcı tələbələrini ölkənin ali təhsil müəssisələri arasında bir neçə nominasiyada mükafatçılar sırasında olmalarını yüksək qiymətləndirib, tələbələri mükafat və fəxri fərmanla təltif edib.

Qeyd edək ki, festivalın keçirilməsində məqsəd yaradıcı və istedadlı gəncləri üzə çıxartmaqdır.

**M.MİRZƏ,**
**"Respublika".**

# GDU-DA "SOSİAL ŞƏBƏKƏLƏR: İNTELLEKT VƏ MƏNƏVİYYAT AXTARIŞI" MÖVZUSUNDA TƏDBİR

**Gəncə Dövlət Universitetində Azərbaycan Yaradıcılıq Fondu və Azərbaycan Bəhailəri Dini Mərkəzinin birgə iştirakı ilə "Sosial şəbəkələr: intellekt və mənəviyyat axtarışı" mövzusunda tədbir keçirilib. Tədbirdə Azərbaycan Yaradıcılıq Fondunun aparat rəhbəri, şair Qismət Rüstəmov, "Multikulturalizm" jurnalının baş redaktoru, yazıçı, jurnalist Fəxri Uğurlu, Azərbaycan Bəhailəri Dini Mərkəzinin katibi, psixoloq Ramazan Əsgərli, Mədəniyyət və İncəsənət Universitetinin müəllimi, yazıçı Qan Turalı, rejissor Pərviz Həsənov, operator Kazım Əsgərzadə və Azərbaycan Yaradıcılıq Fondunun təşkilat şöbəsinin müdiri, tədbirin koordinatoru Fuad Cəfərov, həmçinin universitetin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.**



Tədbiri giriş sözü ilə açan GDU-nun Humanitar məsələlər üzrə prorektoru Gülsüm Fətəliyeva qonaqları yığıncaq iştirakçılarına təqdim edib.

Sonra çıxış edənlər - Qismət Rüstəmov, Ramazan Əsgərli, Fəxri Uğurlu və Qan Turalı sosial şəbəkələrin: Feysbuk, İnstaqram və Tvitterin geniş yayıldığı müasir şəraitdə Azərbaycan gəncliyinin düzgün istiqamətə yönəldilməsinin vacibliyindən, onlarda "mənəvi immunitet" yaratmaqla sosial şəbəkələrin mənfi təsirindən uzaqlaşdırmaq, bu şəbəkələrin müsbət yönlərindən faydalanmaq üçün şərait yaradılması zərurətindən danışıblar.

Qeyd edilib ki, sivilizasiyanı irəli aparan 2 əsas qüvvə - elm və din arasında birlik olanda cəmiyyət həmişə irəli gedib, ehkamçılıq isə sosial kolliziyalara səbəb olub. Gəncləri internetə qədər maarifləndirmək, intellektini inkişaf etdirmək, mənəvi tərbiyə etmək lazımdır.

Prorektor Gülsüm Fətəliyeva, dekanlardan Bayram Apoyev, Urfan Həsənov, dekan müavini Məhərrəm Babayev, kafedra müdirləri Zümrüd Cavadova, Maqbet Əhmədov, "Yüksəliş" qəzetinin müxbiri Firəngiz İdrisqızı, tələbələrdən Zümrüd Məhərrəmova, Rauf Məmmədov, Səməndər İmanov sosial şəbəkələr barədə mülahizələrini bildiriblər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Rektorun ilk qəbul günü...



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 mart 2019-cu il tarixli sərəncamı ilə Elçin Səfəralı oğlu Babayev BDU-ya rektor təyin edildi. Universitetin professor-müəllim və tələbə heyəti BDU-da rektorun kim olacağı haqqında tam məlumat aldılar. Elçin Səfəralı oğlu Babayev 1965-ci ildə Naxçıvan şəhərində ziyalı ailəsində doğulmuşdur.**

Rəhmətlik atası Səfəralı Babayev elmli, işgüzar, məsuliyyətli və sadə bir şəxs olduğuna görə Naxçıvan elinin bu gün də xatirələrində yaşayır, hörmətlə yad edilir. O, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri, Naxçıvan Muxtar Respublikası Nazirlər Soveti sədrinin müavini, sonra isə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun rektoru vəzifələrində ləyaqətlə çalışmışdır. Doğma övladlarına, qohum-qardaşlarına, eləcə də Naxçıvan elinə şan-şöhrət gətirmişdir. Öz müqəddəs atalarına bənzəmək istəyi onun övladlarının da bu gün məsul vəzifələrdə işləmələrinə, xalqa namusla xidmət etmələrinə stimul vermişdir.

Elçin Babayev Fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktorudur. Rektor seçilənədək Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının N.Tusi adına Şamaxı Astrofikiza Rəsədxanasının elmi işlər üzrə direktor müavini idi. Bununla yanaşı, "ŞAR-ın Kosmik plazma və Heliogeofiziki problemlər" şöbəsinin rəhbəridir.

1999-2000-ci illərdə BMT-nin xarici kosmosun tədqiqi üzrə Viyana ofisinin proqramı çərçivəsində bir il müddətində Avropa Kosmik Agentliyində (Hollandiya) tədqiqatçı alim kimi çalışarkən Yer ionosferində yayılan mikrodalğa uzunluqlu elektromaqnit dalğalarının ssintilyasiyasını öyrənib. Transionosferik GHz tezlikli GPS siqnallarının ssintilyasiyasına heliogeofiziki şəraitin və digər fiziki faktorların təsiri bütün en dairələri üçün araşdırılmış, orta en dairələri üçün daha ətraflı tədqiq edilmiş və nəticələr Avropa Kosmik Agentliyində dərc olunmuşdur.

Günəş və Yer əlaqələri və kosmik hava variasiyalarının geosfera təsirinin tədqiqi üzrə tədqiqatlar NASA-nın Beynəlxalq Heliofizika ili üzrə proqramına daxil edilib.

Elçin Babayevin ilk dəfə olaraq Günəş-Yer əlaqələri üzrə ixtisaslaşmış (Sun and Geosphere) Beynəlxalq jurnalı Şamaxı Astrofizika Rəsədxanasında nəşr olunub, ilk baş redaktoru və hazırda fəxri redaktoru Elçin Babayevdir.

O, çoxsaylı elmi əsərlərin müəllifi olaraq Beynəlxalq Astronomiya İttifaqının, Avropa Astronomiya Cəmiyyətinin, eləcə də Avrasiya Astronomiya Cəmiyyətinin İdarə Heyətinin üzvü, Azərbaycan üzrə bu sahədə təmsilçidir.

Elçin Babayev bir çox universitetlərdə, Əmək və Sosial Münasibətlər Akademiyasında çalışmış, özünü görkəmli alim, tədqiqatçı və savadlı pedaqoq kimi göstərmişdir.

Stenford Universiteti (ABŞ) ilə yaradılmış əlaqələr sayəsində 2008-ci ildə Yer ionosferində Çox Aşağı Tezlikli (VLF) elektromaqnit dalğalarının yayılmasının məsafədən tədqiqi üzrə bu universitetdə hazırlanmış cihaz Şamaxı Astrofizika Rəsədxanasında qurulmuş və beynəlxalq tədqiqatlar şəbəsinə qoşulmuşdur.

15 mart 2019-cu ildə hörmətli rektor Elçin Babayev əməkdaşlar və tələbələrlə ilk dəfə olaraq kiçik akt zalında qəbul saatı keçirdi. Fəxri kürsüyə qalxmayaraq əməkdaşlarla üzbəüz kresloya əyləşdi və onları təkbətək, universitetin məsul şəxsləri ilə birlikdə dinləməyə başladı.

İlk əməkdaş qadın uzun müddət universitetdə işləməsinə baxmayaraq, yarım ştatda qalmasını, xəstə qardaşının onun himayəsində olmasını, kirayə yaşamaqlarını həyəcanlı şəkildə rektora bildirdi.

Rektor Elçin Babayev əməkdaşı səbirlə dinlədi, səbəbləri araşdırdı, universitetin Tədris işləri üzrə prorektorunu, hüquqşünası və kadrlar şöbəsinin müdirinin fikrini öyrənib onun tam ştata keçməsinə razılığını oradaca bildirərək göstəriş verdi.

İkinci müraciət edən BDU-nun hüquq fakültəsinin IV kurs tələbəsi oldu. Tələbə bildirdi ki, IV kursa qədər kredit borcsuz oxumağıma baxmayaraq, I kursdan bir kredit borcum qalıb və bu günə kimi onu ləğv edə bilməmişəm. Xahiş edirəm ki, mənim yazı işimi kafedra üzvləri deyil, eyni fənn üzrə başqa mütəxəssislər yoxlasınlar.

Elçin müəllim, tələbəyə səliqəli geyimindən tutmuş sərbəst danışığını üzünə bildirməklə ona təmkinli olmağı məsləhət gördü və əmin etdi ki, narahat olmasın yazı işini anonim yolla AMEA-nın Hüquq İnstitutunda yoxlatdıracaqdır. Bundan sonrakı əməkdaşlara da eyni qayğı, səmimi münasibət bildirildi...

Qəbul saatında Elçin Babayev hər bir əməkdaşla səmimiyyətlə, təmkinlə söhbət edir, onların problemlərini axıra qədər səbirlə dinləyirdi. Bütün məsləhət və göstərişlərindən məlum olurdu ki, rektor əməkdaş və tələbələrin problemlərinə humanistcəsinə yanaşır, məsələni yerindəcə həll etməyə çalışır. Nəticə çıxarmazdan əvvəl universitetin prorektor və şöbə rəislərini dinləyir, onların məsləhət və fikirlərini öyrənir, sonra öz sözünü deyirdi. Demək olar ki, ilk qəbul günündə əməkdaş və tələbələr akt zalını minnətdarlıqla tərk etdilər.

Əməkdaş və tələbələrə göstərilən münasibət məndə də bir daha əminlik yaratdı ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kadrların seçilməsi və düzgün yerləşdirilməsi işində hər sahədə olduğu kimi, bu sahədə də ulu öndərin siyasi kursunu layiqincə həyata keçirir.

BDU-nun rektoru Elçin Babayev ilk qəbulunda əməkdaş və tələbələrin universitetlə əlaqəsi olmayan məişət problemlərini də soruşur. Heyrətdən donub qalmışdım, görürdüm ki, rektor qəbulda əməkdaş və tələbələrin ailə-məişət problemləri ilə də maraqlanır, onlara düz yol göstərirdi. Qanun çərçivəsində edə biləcəyi köməyi universitet əməkdaşları ilə məsləhətləşib yerindəcə həll edirdi. "Baxarıq, çalışarıq" ifadələri işlənmir, məsələ yerindəcə həll olunurdu.

Hörmətli Elçin müəllim, bu şərəfli və məsuliyyətli işdə uğur həmişə Sizinlə qoşa addımlasın və Sizə şərəf gətirsin... Xalqa və dövlətçiyə xidmət yolunda sizə uğurlar arzulayıram.

**Saleh TALE (QULİYEV),**
**şair, jurnalist,**
**texnika üzrə fəlsəfə doktoru.**

# "Nizami" layihəsi yüksək qiymətləndirilib

AMEA Rəyasət Heyətinin Aparatı Mətbuat və İnformasiya İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilir ki, aprelin 12-də Bakıda Avropa Komissiyasının maliyyə dəstəyi ilə 2015-ci ildən həyata keçirilən Azərbaycanda doktorantura təhsilinin Avropa ali təhsil məkanının tələblərinə uyğun yenidən qurulması və inkişaf etdirilməsi - "Nizami" layihəsinin yekunlarına həsr olunan tədbir keçirilib.

Azərbaycan Respublikası Təhsil Nazirliyi aparat rəhbərinin müavini Yaqub Piriyev çıxış edərək layihənin böyük əhəmiyyətə malik olduğunu qeyd edib. Bildirib ki, Təhsil Nazirliyinin, AMEA-nın və doqquz ali təhsil müəssisəsinin, eləcə də Avropanın beş aparıcı universitetinin iştirak etdiyi "Nizami" milli layihəsinin əsas məqsədi Azərbaycanda doktorantura təhsilinin təşkili qaydalarının yenidən hazırlanması, ixtisas təsnifatının Avropada mövcud olan təsnifata uyğunlaşdırılmasıdır.

Y.Piriyev Azərbaycanda doktorantura təhsili sistemində aparılan məqsədyönlü islahatlardan danışaraq, bu sahədə müasir dövrün çağırışlarından irəli gələn vəzifələri diqqətə çatdırıb, görülmüş işlərin yüksəkixtisaslı gənc kadrların hazırlanmasına yönəldiyini bildirib.

AMEA-nın akademik-katibi, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev isə öz nitqində akademiyanın "Nizami" layihəsinin hədəflərinə və qarşıya qoyulan məsələlərin həllinə xüsusi diqqət yetirdiyini bildirib.

Rəyasət Heyətinin qərarı ilə AMEA-da "Nizami" layihəsinə dəstək üçün İşçi qrupunun təşkil olunduğunu söyləyən çıxışçı son 3 il ərzində Rəyasət Heyətinin məsul şöbələrinin rəhbərlərinin bu layihədə müntəzəm olaraq iştirak etdiyini deyib.

Azərbaycanda Milli "Erasmus+" ofisinin rəhbəri Pərviz Bağırov layihə çərçivəsində görülmüş işlər barədə məlumat verib. Ofis rəhbəri Azərbaycan üçün prioritet sahələrin kurikulum quruculuğu, Avropa standartları çərçivəsində təhsil sahəsində birgə təcrübə mübadiləsinin aparılması, ali təhsil müəssisələrinin idarə edilməsi və fəaliyyətinin təkmilləşdirilməsi olduğunu vurğulayıb.

Fransanın ölkəmizdəki səfirliyinin əməkdaşlıq və mədəniyyət üzrə müşaviri Johan Şitterer ölkəsi ilə Azərbaycan arasında siyasi, elmi, iqtisadi və digər sahələrdə əlaqələrin daim genişləndiyini söyləyib.

Tədbirdə "Nizami" layihəsinin koordinatoru, Montpelye Universitetinin professoru Veronique Montero "Doktorantura təhsili üzrə Fransa təcrübəsi", Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Elm sektorunun müdiri Anar Kazımov "Nizami layihəsi: əldə olunmuş nəticələr və yeni perspektivlər" və AMEA Rəyasət Heyəti Aparatının Beynəlxalq əlaqələr idarəsinin rəisi, b.ü.f.d. Esmira Əlirzayeva "Milli idarəetmə portalı" mövzusunda məruzələrini təqdim ediblər.

Sonda tərəfdaş ali təhsil müəssisələrində "Nizami" layihəsi çərçivəsində həyata keçirilmiş tədbirlər barədə məlumat verilib, geniş müzakirələr aparılıb.

**Kamil İSMAYILOV,**
**"Respublika".**

# UNEC-100: Sosial xidmətlərdə aparıcı universitet

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) 2030-cu ilədək sosial xidmətlərdə aparıcı ali təhsil müəssisəsinə çevrilməyi qarşısına məqsəd qoyub. "UNEC-100" İnkişaf strategiyasında bu istiqamətdə strateji məqsəd və hədəflər müəyyən edilib.**

Hər il milli səviyyəli sosial məsuliyyətlilik layihəsi reallaşdırmaq, ömür boyu təhsil proqramı üzrə ən azı beş təhsil xidməti göstərmək, UNEC-də toplanan bilik və təcrübənin cəmiyyətə transfer mexanizmlərini, tələbələrin təşkilatlanmasını və sosial şəraitini, o cümlədən məzunlarla əlaqə mexanizmini daim təkmilləşdirmək bu istiqamətdə strateji hədəflər kimi təsbit olunub.

Strategiyaya əsasən, milli səviyyəli sosial məsuliyyətlilik layihələri cəmiyyətin elmi yanaşmaya və elmi inkişafa verdiyi dəyəri artırmağa, ekoloji şüurun inkişafına, aktual sosial problemlərin öyrənilməsi ilə bağlı tədqiqatların həyata keçirilməsinə yönələcək.

UNEC-də toplanan bilik və təcrübənin cəmiyyətə transfer mexanizmlərinin fasiləsiz olaraq təkmilləşdirilməsi, elmi tədqiqatlar, tədbir və layihələrin nəticələrinin cəmiyyətlə bölüşdürülməsi də strategiyada əksini tapıb. İnkişaf strategiyasında açıq tədris resurslarının formalaşdırılması, mühazirə və seminarların təşkili, onların internet üzərindən yayılması, UNEC ekspertlərinin media ilə əlaqə mexanizmlərinin təkmilləşdirilməsi də nəzərdə tutulub.



2030-cu ilə qədər UNEC ömür boyu təhsil proqramı üzrə ən azı beş təhsil xidməti göstərməyi hədəfləyib. Bu istiqamətdə müxtəlif sosial problemlərlə bağlı maarifləndirmə proqramlarının, o cümlədən biznes dünyasına yönəlik qısamüddətli sertifikat proqramlarının və yaşlıların təhsilinə xidmət edən təhsil proqramlarının təşkil edilməsi nəzərdə tutulub.

İnkişaf strategiyasında tələbələrin təşkilatlanma mexanizmini və sosial şəraitini daim təkmilləşdirmək də yer alıb. Bu istiqamətdə ixtisaslaşmış tələbə təşkilatlarının sayının artırılmasına, tələbə senatı və tələbə auditinin formalaşdırılmasına, tələbə-universitet-valideyn üçtərəfli əlaqə modelinin tətbiq edilməsinə xüsusi önəm veriləcək. Eyni zamanda tələbələrin karyera quruculuğuna dəstək göstərilməsi, tələbələr arasında multikultural dəyərlərin yayılmasına xidmət edən tədbirlərin təşkili, sosial layihələrin sayının və çeşidliliyinin artırılaraq davamlılığının təmin edilməsi fəaliyyət istiqamətləri kimi strategiyada təsbit olunub.

UNEC məzunlarla əlaqə mexanizmini daim təkmilləşdirməyi də prioritet seçib. Strategiyaya əsasən, Məzunlar Assosiasiyası və Məzun evlərinin yaradılması, fəxri məzunlarla sistemli əlaqə mexanizminin qurulması, onların əlamətdar tədbirlərə dəvət edilməsi və elektron məlumat bazalarının formalaşdırılması nəzərdə tutulub. ■

Abşeron Rayon Mərkəzi Xəstəxanası
AÇIQ TENDER ELAN EDİR
Tender 1 (bir) lot üzrə keçirilir:
Lot-2. Bərk inventarların alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu ala bilərlər.

Ünvan: Xırdalan şəhəri, İlham İsgəndərov küçəsi-8
Lot üzrə iştirak haqqı 70 (yetmiş) AZN
Əlaqələndirici şəxs: Allahverdiyeva Şəmsiyyə
Telefon: 342-20-61

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
Dövlət Xəzinədarlığı Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
M/h- AZ41NABZ01360100000000003944
S.W.İ.F.T. BİK CTREAZ 22
Abşeron Rayon Mərkəzi Xəstəxanası
H/h: AZ17CTRE-00000000000002126831
VÖEN: 3100805251
İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
—tenderdə iştirak etmək üçün ərizə;
—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
—tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
—tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
—iddiaçının son iki ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
—iddiaçının son iki il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;
—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;
—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, tikinti-quraşdırma və xüsusi torpaq işləri ilə bağlı lisenziyanın vacibliyi.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank zəmanəti istisna olmaqla 21 may 2019-cu il saat 17:00-dək, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 30 may 2019-cu il tarixdə saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 31 may 2019-cu il tarixdə saat 12:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

# DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ SƏYYAR QƏBULLARI



Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin təsdiq edilmiş qrafikə uyğun vətəndaşların növbəti səyyar qəbulu hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Aşağı Daşkəsən kəndində olub. Kənd sakinlərini salamlayan rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev vətəndaşlarla keçirilən hər bir görüşdə qaldırılan problemlərin və verilən təkliflərin yerinə yetirilməsi üçün aidiyyəti qurumlar tərəfindən konkret və əməli tədbirlərin görüldüyünü bildirib, o cümlədən rayonda aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verib. Rayon rəhbəri xüsusilə vurğulayıb ki, möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə hər zaman çox güclü sosial siyasət aparılır. O, cari ilin əvvəlində çox ciddi və böyük sosial paketin təsdiqləndiyini və həmin proqramın 3 milyondan çox insanı əhatə etdiyini diqqətə çatdırıb.

Kənd sakinləri əhalinin problemlərinin həlli istiqamətində həyata keçirilən bu kimi tədbirlərə, göstərilən daimi diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

* * *

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin növbəti səyyar qəbulu Gurbulaq kəndində keçirilib. Səyyar qəbulda rayonun idarə, müəssisə, xidmət təşkilatlarının və hüquq-mühafizə orqanlarının rəhbərləri, kənd sakinləri iştirak ediblər. Kənd ümumi orta məktəbində keçirilən görüşdə çıxış edən Əhəd Abıyev bu cür görüşlərin ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə mütəmadi olaraq yerlərdə davam etdirildiyini diqqətə çatdırıb. Əhəd Abıyev vurğulayıb ki, Gurbulaq kəndinin işıq, su, qaz, yol ilə bağlı sosial qayğılarının həlli istiqamətində ardıcıl işlər aparılır və hazırda kənddə 40 şagird yerlik modul tipli yeni məktəb binasının tikintisi artıq başa çatdırılmışdır, yaxın günlərdə istifadəyə veriləcəkdir. Sonra kənd sakinlərinin müraciətlərini dinləyən Əhəd Abıyev qaldırılan məsələlərin icrası ilə bağlı aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə öz müvafiq tapşırıqlarını verib.

* * *

Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının növbəti səyyar qəbulu Əmirvar inzibati ərazi vahidliyinə daxil olan Qazaxlı kəndində olub. Qəbulda rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, digər xidmət təşkilatlarının rəhbərləri, ərazi icra nümayəndəsi, bələdiyyə sədri və kənd sakinləri iştirak ediblər. Son illər respublikamızda və Daşkəsən rayonunda görülmüş işlər barədə geniş məlumat verən Əhəd Abıyev rayonun Əmirvar kənd inzibati ərazi vahidliyində də xeyli abadlıq, quruculuq, təmir-bərpa işlərinin aparıldığını, sakinlər tərəfindən qaldırılan problemlərin həlli istiqamətində daim tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Qazaxlı kənd sakinlərinin müraciətləri dinlənilib. Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev qaldırılan məsələlərin araşdırılması ilə əlaqədar aidiyyəti qurumların rəhbərlərinə öz tapşırıqlarını verib. Müraciətlərin əksəriyyəti yerindəcə həll edilib. Kənd sakinləri əhalinin problemlərinin həll edilməsi məqsədilə yerlərdə həyata keçirilən tədbirlərə, göstərilən diqqət və qayğıya görə ölkə rəhbəri cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

## Mingəçevirdə Aprel şəhidlərinin xatirəsi yad edilib





Aprel qələbəsindən 3 il keçdi. Heç şübhəsiz ki, bu qələbənin qazanılmasını Ali Baş Komandan, Prezident İlham Əliyevə və onun rəhbərlik etdiyi Azərbaycan ordusunun şəxsi heyətinə borcluyuq. Bu şanlı qələbənin əldə edilməsində ən uca zirvəyə - Şəhid adına yüksələnlər daim xalqımızın and yerinə çevrilmişdir. Onların əziz adları dövlətimiz tərəfindən əbədiləşdirilir, ailələri bir an da olsun diqqət və qayğıdan kənarda qalmır. Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, icra nümayəndələri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Mingəçevir şöbəsi, KİV nümayəndələri Aprel şəhidi Qasımov Teymur Sabir oğlunun ildönümü mərasimində iştirak edib, şəhidin ailəsini ziyarət ediblər. İcra başçısı ilə görüşən şəhidin atası Sabir Qasımov şəhidlərə və şəhid ailələrinə göstərdiyi diqqət və qayğıya görə öncə Prezident İlham Əliyevə minnətdarlıq bildirib. İl mərasimində şəhidin ruhuna dualar oxunub, ailəsinə Allahdan səbr dilənib.

2016-cı ilin aprel ayında Azərbaycan-Ermənistan təmas xəttində gedən döyüşlər zamanı şəhid olan Adilzadə Adil Kamran oğlunun xatirəsi yad edilib. Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Mingəçevir bölməsi, ictimaiyyət nümayəndələri, şəhidin dostları, Mingəçevir Gənclər evinin könüllüləri şəhid ailəsini evində ziyarət edib. Anım mərasimində şəhidin ruhuna dualar oxunub, yaxınlarına Allahdan səbr dilənib. Başçı İlham İsmayılov şəhidin atası ilə söhbət edərkən onların problemləri ilə maraqlanıb və bildirib ki, biz hər zaman sizin yanınızdayıq. Söhbət zamanı bir sıra məsələlərə də aydınlıq gətirilib.

Xatırladaq ki, Adil Adilzadə təkbaşına 17 erməni əsgərini məhv edib. O, qolundan güllə yarası almasına baxmayaraq, döyüşü davam etdirib. Bu onun son döyüşü olur. Aprelin 11-də Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, 1993-cü il təvəllüdlü, müddətdən artıq hərbi xidmət qulluqçusu, çavuş Adilzadə Adil Kamran oğlu Mingəçevir Şəhidlər Xiyabanında dəfn edilib. Qeyd edək ki, Adil Adilzadə ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib. Allah rəhmət eləsin.

### Səyyar görüşlər davam edir

Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılovun aprelin 10-da keçirilən növbəti səyyar görüş 2 nömrəli Mənzil İstismar Sahəsinin ərazisini əhatə edən 11 saylı məhəllə sakinləri ilə oldu. Buraya Heydər Əliyev prospektindəki 62, 64, 66/25, Nizami küçəsindəki 17/35, 19, 19/1, 19/2, 19/3, 21/2, 23, 23/1, 23/2, 23/3 və Nərman Nərimanov küçəsindəki 31, 33 nömrəli binaların sakinləri daxil idilər. Təxminən 500 nəfər sakini əhatə edirdi.

Əvvəlcədən qeyd edək ki, məhəllə şəhərimizin nümunəvi məhəllələri sırasına daxildir. Burada idman qurğuları, uşaqların, yeniyetmə və gənclərin istirahəti üçün voleybol, futbol meydançaları yaradılmış, sakinlərin boş vaxtlarını səmərəli keçirmək üçün oturacaqlar səliqəyə salınmış, eləcə də ərazidə yeni ağac tingləri əkilib, ağacların dibləri bellənib, gövdələri ağardılıb və suvarılma işləri aparılıb. Yaşayış binalarının dam örtükləri tam yenilənib, fasadları qaydaya salınıb.

Görüşü şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov açaraq sakinləri salamladı, onlara ölkə rəhbəri möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər haqqında məlumat verdi və Mingəçevirdə aparılan abadlıq-quruculuq işlərindən bəhs etdi. Bildirdi ki, ölkəmiz iqtisadi cəhətdən inkişaf etdikcə əhalinin maddı rifah halının yaxşılaşdırılması üçün cənab Prezident tərəfindən mühüm addımlar atılır, sərəncamlar imzalanır. Bunun nəticəsidir ki, bu gün Mingəçevirdə səliqə-sahman göz oxşayır, yeniliklər özünü göstərir. Əhalinin işsiz təbəqələrinin təmin olunması üçün əməli işlər görülür. Bugünkü görüşümüzün əsas məqsədi sizi dinləmək, qarşıya çıxan problemlərin birgə həllinə nail olmaqdır. Bu cənab Prezidentin qarşımıza qoyduğu ən mühüm vəzifələrdən biridir.

Sonra məhəllə sakinlərindən Vahid İsmayılov, Rübabə Tahirova, Qüdrət Qədimov, Məlahət Abbasova, Sərvaz Orucova, Tahir Məmmədov, Sevinc Məmmədova və başqaları çıxış edərək ölkə başçısı cənab İlham Əliyevin əhaliyə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər, şəhər rəhbərinin son zamanlar həyata keçirdiyi işləri təqdirəlayiq hesab etdilər. Eyni zamanda öz fikir və təkliflərini, qarşıya çıxan problemləri dilə gətirdilər. Xüsusilə qeyd etdilər ki, məhəllədə işıqlandırma vəziyyəti zəifdir, istilik sistemi fəaliyyət göstərmir, ağacların sulanması üçün nizami qayda yoxdur, bəzi evlərin üstündən su damır, fiziki cəhətdən ömrünü başa vurmuş ağacların budanması ləng həyata keçirilir, zibil qablarının yerləşdirilməsində onların səliqə-sahmanının qorunmasında intizamsızlıq halları mövcuddur. Bununla yanaşı bildirildi ki, əraziyə yaxın yerdə bəzi sahibkarlar illərdir müəyyən sahəni mülkiyyətlərinə alıb heç bir iş görmürlər və insanların istirahətinə mane olurlar. Şəhərdə ərzaq mağazalarına və digər köşklərə çörəklərin daşınmasında da səliqəsizliyə yol verildiyi diqqətə çatdırıldı.

Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov sakinlərin müraciətlərini diqqətlə dinləyərək hər məsələnin üstündə ayrıca dayandı, müvafiq idarə, müəssisə, təşkilat rəhbərlərinə tapşırıq və göstərişlərini verdi, məsələnin tezliklə həll olunmasını tövsiyə etdi. ■

# SARITƏPƏDƏ QƏBUL

**Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədovun istər kəndlərdə keçirdiyi səyyar görüşlər, istərsə də vətəndaşları fərdi şəkildə qəbul etməsi, hətta vətəndaşın müraciətinə əsasən yaşadığı ünvana getməsi bir amala xidmət edir ki, o da vətəndaş məmnunluğuna nail olmaqdır.**



Alimpaşa Məmmədovun vətəndaşları Şəmkir Rayon İcra Hakimiyyətinin inzibati binası ilə yanaşı, yerlərdə də fərdi şəkildə qəbul etməsi, onları narahat edən məsələləri dinləyib və həlli istiqamətində tapşırıqlar verməsi artıq bir ənənə halını alıb. Hər zaman sakinlərin qayğı və problemləri ilə maraqlanan Şəmkir Rayon İcra Hakimiyyəti başçısı Sarıtəpə kəndində 20 nəfəri fərdi şəkildə qəbul edib.

Qəbul zamanı Alimpaşa Məmmədov bildirib ki, cənab Prezident İlham Əliyevin siyasətindən bəhrələnərək əsas məqsədimiz vətəndaşlara layiqli xidmət etməkdir.

Fərdi qəbulda bir sıra məsələlər yerindəcə həllini tapıb. Digər problemlərin həlli aidiyyəti qurumlar tərəfindən nəzarətə götürülüb.

**Eyvaz HƏMİD,**
**"Respublika".**

# Bərdə: Tibbi müayinə mütəşəkkil aparılır

**Respublika Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun hər il fevral-may aylarında ölkənin hər yerində əhalinin pulsuz tibbi müayinəsi həyata keçirilir.**



Aran Qarabağın ən böyük rayonlarından olan Bərdə rayonunda bu xeyirxah aksiya daha mütəşəkkil olaraq aparılır. Rayon rəhbərliyinin ciddi nəzarəti nəticəsində hər bir vətəndaş aksiyadan bəhrələnir. Bərdədə 120636 nəfərin tibbi müayinədən keçməsi nəzərdə tutulur. Tibbi müayinə əsasən Bərdə Mərkəzi Rayon Xəstəxanasının qadın məsləhətxanasında, Bərdə şəhər poliklinikasında, Birləşmiş Uşaq Xəstəxanasının poliklinikasında, Bərdə Müalicə Diaqnostika Mərkəzində, eləcə də Mircəfərli, Əyricə, Balabəy, Kolayır və Ləmbəran kənd sahə xəstəxanalarında, eyni zamanda ərazi üzrə kənd həkim məntəqələrində həyata keçirilir. Bunlarla yanaşı, 15 səyyari həkim briqadası təşkil olunmuşdur. Yaradılmış səyyari briqadaların tərkibində terapevt, cərrah, mama-ginekoloq, pediatr, oftalmoloq, laborant və USM fəaliyyət göstərir. Tam tərkibdəki həkim briqadaları rayon mərkəzindən uzaq məsafədə yerləşən yaşayış məntəqələrinə ezam olunur, eləcə də yataq xəstələrini və tibb müəssisəsinə gəlmək imkanı olmayan insanları tibbi müayinədən keçirirlər. Sakinlərdə hər hansı bir xəstəlik aşkar olduqda stasionar müalicəyə cəlb olunur və ya Bakı şəhərinə və respublikanın digər bölgələrində fəaliyyət göstərən ixtisaslaşmış tibb məntəqələrinə göndərilir. Hazırda 89908 nəfər tibbi müayinədən yararlanmışlar.

Qeyd etmək lazımdır ki, aprel ayının 9-da Bərdə Rayon Mərkəzi Xəstəxanasında qanvermə aksiyası keçirilmişdir. Aksiyada könüllü olaraq 130 nəfər qan vermişdir. Bu aksiyada məqsəd talassemiya və hemofiliya xəstəliklərindən əziyyət çəkən insanlara və qana ehtiyacı olan digər xəstələrə yardım əlini uzatmaq olmuşdur.

Bərdədə insanların sağlamlığı daim diqqət mərkəzində saxlanaraq əhalinin tibbi müayinəsi uğurla davam etdirilir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Xaçmazda tibbi tədbirlər

**Qızılca ən çox yayılmış yoluxucu xəstəliklərdəndir. Dünyanın hər yerində rast gəlinir. Payız, qış və yaz aylarında daha çox təsədüf olunur. 2017-ci ildə Avropada qızılca xəstəliyinin epidemioloji alovlanmaları baş vermiş, 14 ölkədə xəstəlik hadisələri qeydə alınmışdır. 2018-ci Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata görə qızılca ilə xəstələnmə hadisələrinin sayı artmış, Yunanıstan, Gürcüstan, İtaliya, Rusiya, Serbiya və Ukraniyada yüzlərlə xəstəlik hadisələri baş vermişdir.**

Ölkəmizdə bu kəskin yoluxucu xəstəliyə qarşı profilaktik tədbirlər daim dövlətin diqqət mərkəzindədir. Hazırda respublikamızda dövlətin dəstəyi ilə qızılcaya qarşı immunoprofilaktik tədbirlər həyata keçirilir. Səhiyyə Nazirliyinin "Respublikada qızılcaya qarşı immunizasiya tədbirlərinin aparılması barədə" müvafiq əmrinə əsasən epidemioloji göstərişlə ölkəmizdə 20-40 yaşlı əhali arasında cari ilin mart-aprel aylarında qızılcaya qarşı təmizləyici immunizasiya tədbirləri aparılır.



Dövlət əhəmiyyətli bu tibbi kampaniya Xaçmaz rayonunda da mütəşəkkil təşkil olunmuşdur. Rayonda qızılcaya qarşı təmizləyici immunizasiya tədbirləri Milli Peyvənd Təqviminə uyğun surətdə həyata keçirilir. Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşlarından, Mərkəzi Rayon Xəstəxanasının həkim-terapevtlərindən və vaksinatorlarından ibarət həkim briqadaları təşkil edilmişdir. İmmunizasiya tədbirlərinin aparılması üçün rayona kifayət qədər qızılca və məxmərək vaksini ayrılmışdır. 2019-cu ilin aprelin 5-dək olan tarixə 1401 nəfər peyvəndə cəlb edilmişdir. Hazırda rayonda qızılcaya qarşı peyvəndləmə işləri davam etdirilir.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

## Dünya Enerji Şurası ilə əməkdaşlıq əlaqələri

Energetika naziri Pərviz Şahbazov Dünya Enerji Şurasının regional inkişaf üzrə sədr müavini Oleq Budarqin ilə görüşüb. Söhbət zamanı Dünya Enerji Şurası ilə əməkdaşlıq əlaqələrinin inkişafı, texnologiyaların tətbiqi ilə enerji sektorunda qlobal miqyasda baş verən dəyişikliklər və yeni çağırışların müzakirəsi üçün 3 ildən bir keçirilən Dünya Enerji Konqresi ilə bağlı fikir mübadiləsi aparılıb. 1923-cü ildən fəaliyyət göstərən, 100-ə yaxın ölkəni və 3 mindən çox təşkilatı əhatə edən Dünya Enerji Şurasının enerji təhlükəsizliyi, enerji bərabərliyi və ekoloji təhlükəsizlik arasında balansın yaradılmasındakı rolundan bəhs edilib. Bildirilib ki, yanacaq-energetika sektorunun bütün istiqamətlərini özündə birləşdirən qlobal təşkilat kimi Dünya Enerji Şurası enerji ölkəsi olaraq tanınan Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlıdır.

Söhbət zamanı energetika naziri Pərviz Şahbazova cari ilin 9-12 sentyabr tarixlərində Birləşmiş Ərəb Əmirliyində keçiriləcək 24-cü Abu-Dabi Dünya Enerji Konqresinə dəvət məktubu təqdim edilib.

Qeyd edək ki, "Rifah üçün enerji" devizi altında keçiriləcək tədbir çərçivəsində, həmçinin 8-ci Asiya Nazirlər Toplantısı da nəzərdə tutulub.

## Energetika Nazirliyində inzibati xətalarla bağlı 46 işə baxılıb

2019-cu ilin I rübü ərzində Energetika Nazirliyində inzibati xətalarla bağlı 46 işə baxılıb, - qurumun mətbuat xidmətindən verilən məlumatda bildirilir.- Bunlardan 22-si təbii qaz, 24-ü isə elektrik enerjisi ilə bağlı olub. Təbii qazla bağlı 6 iş üzrə təqdim edilmiş materiallar düzgün tərtib edilmədiyindən aidiyyəti üzrə geri göndərilib.

Nazirlik tərəfindən Ağsu, Ağdaş, Cəlilabad, Lənkəran, Zaqatala və digər rayonlarda aparılmış yoxlamalar nəticəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə təbii qazın talanması nəticəsində az miqdarda ziyan vurulmasına görə 6 iş üzrə, təbii qazdan istifadə qaydalarının pozulmasına görə 2 iş üzrə inzibati tənbeh vermə haqqında, 8 iş üzrə isə inzibati icraata xitam verilməsi haqqında qərar qəbul edilib.

Rüb ərzində Quba, Mingəçevir, İmişli, Şabran, Qazax, Şəki və digər bölgələrdə aparılmış yoxlamalara əsasən, elektrik enerjisinin talanması nəticəsində az miqdarda ziyan vurulmasına görə 11 iş üzrə, elektrik enerjisindən istifadə qaydalarının pozulmasına görə 9 iş üzrə inzibati tənbeh vermə haqqında qərar qəbul edilib. Bundan əlavə, elektrik enerjisinin istehsalı, nəqli və istehlakı haqqında uçot və hesabatın təhrif olunmasına və ya vaxtında təqdim olunmamasına görə 2 iş üzrə, elektrik enerjisi xətlərinin qanunsuz olaraq kəsilməsinə və ya qanunvericilikdə istehlakçıya yazılı bildirişin göndərilməsi tələb olunan hallarda yazılı bildiriş göndərilmədən elektrik enerjisinin verilməsinin dayandırılmasına görə isə 2 iş üzrə inzibati tənbeh vermə haqqında qərar qəbul edilib və bütün qərarların "ASAN ödəniş" sistemində yerləşdirilməsi təmin edilib.

**"Respublika".**

## "Azəriqaz" İB "ASAN Xidmət" vasitəsilə 83682 istehlakçıya xidmət edib

SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi tərəfindən 2019-cu ilin yanvar-mart ayları ərzində Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən "ASAN Xidmət" və "ASAN Kommunal" mərkəzlərinə daxil olan müraciətlər əsasında smart tipli sayğaclar ilə təchiz olunmuş istehlakçıları narahat edən problemlər araşdırılmış, müraciətlərdən asılı olaraq şöbələrdən tələb olunan məlumatların əldə olunması və bu məlumatlar əsasında istehlakçılara müvafiq xidmətlərin göstərilməsi təmin edilmişdir.

Cari ilin birinci rübü ərzində Bakı şəhəri üzrə 1 və 2 saylı "ASAN Kommunal", 4, 5 saylı "ASAN Xidmət" mərkəzlərinə və "Səyyar ASAN" xidmətinə, bundan əlavə, Bərdə, Sabirabad, İmişli, Masallı, Qəbələ, Quba, Mingəçevir, Şəki, həmçinin Gəncə şəhərində yerləşən "ASAN Xidmət" mərkəzlərinə ümumilikdə 83 min 682 müraciət daxil olmuş və bu müraciətlərin icrası tam təmin edilmişdir.

İstehlakçılarla münasibətlərin təkmilləşdirilməsi, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Birlik bu istiqamətdə fəaliyyətini bundan sonra da davam etdirəcəkdir.

**"Azəriqaz" İB-nin İctimaiyyətlə əlaqələr şöbəsi.**

## *Sosial həyat*

### Cari ilin ilk rübündə 60 minə yaxın vətəndaş müraciəti cavablandırılıb

2019-cu ilin birinci rübü ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 58 988 vətəndaş müraciəti cavablandırılıb. Müraciətlərin 28 262-si məktub, ərizə ilə, e-qaydada, 27 378-i 142 "Çağrı Mərkəzi" vasitəsilə, 1180-i iş telefonlarına, 2168-i sosial şəbəkələr (facebook, instagram səhifələri) ilə edilib. Nazirliyin rəhbər vəzifəli şəxsləri və əməkdaşları tərəfindən fərdi qaydada qəbul edilən vətəndaşların sayı isə 7 266 nəfər olub. Onlardan 200 nəfəri (o cümlədən bölgələrdə qəbullar zamanı 85 nəfər) nazir tərəfindən qəbul edilib.

Vətəndaşların nazirliyə etdikləri, həmçinin fərdi qəbullar zamanı müraciətlər bu və ya digər sosial təminat növünə hüququn müəyyən olunması, əmək hüquqları, tibbi-sosial ekspertiza və reabilitasiya, elektron xidmətlərdən istifadə, aktiv məşğulluq tədbirlərinə, o cümlədən özünüməşğulluq proqramına cəlb olunma və s. kimi aidiyyəti məsələlərlə bağlı olub. Hər bir müraciətin qanunvericiliyin tələbləri əsasında cavablandırılması, sorğu xarakterli müraciətlərlə əlaqədar aydın şəkildə izahatlar verilməsi təmin edilib.

### Şəhidlərimizdən daha 700 nəfərin 1160 vərəsəsinə birdəfəlik ödəmə verilməsi barədə qərar

Bu günədək artıq 6191 şəhidin 9054 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Fərmanının icrası olaraq şəhidlərimizin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı işləri davam edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində fəaliyyət göstərən Komissiya növbəti iclasında daha 700 şəhidin 1160 vərəsəsinə birdəfəlik ödəmə (11 min manat) verilməsi barədə qərar qəbul edib. Müvafiq vəsaitlər bir həftə ərzində vərəsələrin bank hesablarına köçürüləcək.

Dövlət başçısının 19 aprel 2018-ci il tarixli və 28 yanvar 2019-cu il tarixli Fərmanlarına əsasən, ümumilikdə 12268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib. Bu günədək onlardan artıq 6191 şəhidin 9054 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsi.**

# "ANAMA SÖZ VERDİYİM KİMİ YÜKSƏKLƏRƏ UCALDIM!"

İnsanın həyatda nə qədər yox, necə yaşadığı yadda qalır. Həyat nə qədər uzun olsa da, yenə qısadır. Ömrünün 50 ilini ləyaqətlə və hər dəqiqəsini baş ucaldıcı əməlləri ilə yaşayan Sabit Qasım oğlu Abbasəliyev Gürcüstan Respublikasının Marneuli rayonunun Quşçu kəndində sadə fəhlə ailəsində anadan olmuşdur. Onun istedadı məktəbə getdiyi ilk gündən özünü göstərirmiş, əla qiymətlərlə oxuyaraq bütün yaşıdlarına nümunə olurmuş.

Böyük əmim Qəndəli Qasım oğlu Abbasəliyev həmişə mənə atam və əmim haqda danışardı. Çünki mən hələ çox kiçik yaşlarında olanda atam faciəvi surətdə həyatdan vaxtsız köçmüşdü. Mənə həmişə Sabit əmimi misal çəkərdi, onun uşaqlıq illərindən danışardı, mən də çox həvəslə qulaq asardım.

Əmim Sabit orta məktəbdə oxuyanda, axşamlar qoyun sürüsü otlaqdan qayıdanda kənddə heç kim sürünü çox olduğundan saya bilmirmiş, əmim elə sayarmış ki, heç vaxt yanılmazmış. Bir gün ondan soruşurlar ki, sən sürünü necə sayırsan? O da cavab verir ki, burada heç bir çətinlik yoxdur, mən qoyunları on-on götürürəm.

**Sabit Abbasəliyev 12 may 1932-ci ildə ulu Borçalının Sarvan (indiki Marneuli) rayonunun Quşçu kəndində anadan olmuşdur. 1958-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu bitirdikdən sonra həmin təhsil müəssisəsində institutun komsomol komitəsinin katibi vəzifəsində çalışmış, 1960-cı ildə Bakı Şəhər Komsomol Komitəsinə ikinci katibi seçilmişdir.**

**1962-ci ildən 1964-cü ilə qədər Sabit Abbasəliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində təlimatçı işləmiş, 1964-cü ildə Bakı Neftayırma zavodunun Partiya Komitəsinin katibi seçilmişdir. 1965-ci ildə Azərbaycan KP MK-nın Neft və Kimya Sənayesi Şöbəsinin müdir müavini vəzifəsinə irəli çəkilmişdir.**

**1971-ci ildə Sabit Abbasəliyevin qabiliyyətini, savadını, müsbət iş keyfiyyətlərini nəzərə alan Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi, ulu öndərimiz Heydər Əliyev ona böyük etimad göstərmiş, Sumqayıt şəhər Partiya Komitəsinin birinci katibi vəzifəsinə göndərmişdir. Onun fəaliyyəti illərində şəhər tikinti meydanına çevrilmiş, abadlıq işləri geniş vüsət almış, yeni səhiyyə və təhsil ocaqları, ticarət mərkəzləri tikilmiş, şəhər sakinlərinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli işlər görülmüşdür. Təbii ki, Sabit Abbasəliyevin yorulmaz fəaliyyəti, təşkilatçılıq bacarığı, vətənpərvərliyi və milli düşüncə tərzinin yüksək olması respublika rəhbərliyinin diqqətindən kənarda qalmadı.**

**1974-cü ildə o, daha məsul vəzifəyə — Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə rəis təyin edildi. 1979-cu ildə Sabit Abbasəliyev daha yüksək vəzifəyə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, Dövlət Plan Komitəsinin sədri vəzifəsinə təyin edilmişdir. S.Abbasəliyevin dövlət xadimi kimi istedadı və təşkilatçılıq qabiliyyəti Azərbaycan SSR Dövlət Plan Komitəsinin sədri vəzifəsində çalışdığı dövrlərdə özünü daha qabarıq göstərmiş, burada mütəxəssislərin işini respublikada həlli vacib olan xalq təsərrüfatı problemlərinə yönəldə bilmişdir.**

**Azərbaycanın ictimai-siyasi xadimləri sırasında milli təəssübkeşliyi, həmin adsanı ilə tanınan Sabit Abbasəliyevin vətən qarşısında xidmətlərinin layiqli mükafatı kimi ulu öndərimiz Heydər Əliyev onun "Qırmızı Əmək Bayrağı" ordeni və "Xalqlar Dostluğu" ordeni ilə təltif olunması barədə SSRİ hökuməti qarşısında məsələ qaldırmış və buna nail olmuşdur. Sabit Abbasəliyevin keçdiyi şərəfli həyat yolu bugünkü və gələcək nəsillər üçün sözün həqiqi mənasında nümunə ola bilər. O, qısa ömür yolu keçməsinə baxmayaraq, həyatının ən önəmli illərini Azərbaycanın çiçəklənməsinə, güclənməsinə, iqtisadi potensialının artmasına həsr etmiş, Heydər Əliyevin sədaqətli silahdaşı olmuşdur. Onun bütün fəaliyyətində, mənəviyyatında vətənpərvərlik ruhu, xalqına, dövlətçiliyə sədaqət**



**hissi səciyyəvi olmuşdur.**

**Azərbaycan KP MK-nın üzvü, Azərbaycan SSR Ali Sovetinin deputatı, Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, Dövlət Plan Komitəsinin sədri kimi məsul vəzifələrdə işləmiş, ictimai-siyasi xadim Sabit Qasım oğlu Abbasəliyevin həyat yolu gələcək nəsillərə örnəkdir.**

Nənəm qonşu kənddən olduğuna görə, bir dəfə əmim beşinci sinifdə oxuduğu vaxtlarda nənəmlə onun atası evindən qayıdırmışlar. Hava artıq qaralırmış və o kəndlə bu kəndin arasındakı qalanın ətəyi ilə gəlirlərmiş. Nənəm görür ki, lap yaxında üç canavar üzü bu tərəfə gəlir, o, çox qorxsa da, özünü o yerə qoymayıb əmimin əlindən bərk-bərk yapışır, canavarlar onları görməyərək bir addımlıqdan yanlarından keçib gedirlər. Əgər görsəydilər, Allah bilir nələr olardı. Artıq evə çatanda nənəm deyir ki, canavarla az qala üz-üzə gələcəydik. Əmim, "mən də gördüm, üç dənə idi, amma sən qorxmayasan deyə səsimi çıxarmadım" deyir. Nənəmi ağlamaq tutur və deyir, mən səsimi çıxarmadım ki, Sabit qorxmasın, o da məni düşünüb ki, anam qorxmasın. O yaşda uşağın anasını düşünməsi və səsini çıxarmaması, hətta qaçmaması çox qəribədir.

Gecələr lampa işığında dərs oxuyanda anası Fiyzə xanım "oğlum, gözlərini korlama, sabah oxuyarsan" deyəndə, o həmişə deyərmiş: "Yox, ana, mən oxumalıyam, çox oxumalıyam, o göydəki ulduzları görürsən, ora ucalmalıyam" deyərmiş. O, ucaldı, anasına söz verdiyi kimi, ulduzlara ucaldı, amma anası bunu görmədi. O, həmişə övladlarına da "siz də yaxşı oxuyun, mən anama söz verdim və sözümə əməl etdim" deyərdi.

İbtidai təhsilini doğma kəndi olan Quşçu kəndində başa vurduqdan sonra səkkizinci sinfi qonşu kənd olan Ağməmmədli kəndində bitirib və tam orta təhsilini Qaçağan kəndində tamamlayıb. Qarşısına qoyduğu məqsədinə çatmaq üçün, ali təhsil almağa Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinə gəlir.

Sabit əmim ildə ən azı iki dəfə kəndə gələrmiş, atamın QAZ-21 markalı maşını ilə dağlara, yaylaqlara qalxarlarmış, yeyib-içib, uşaqlıq illərini xatırlayarlarmış. Hər dəfə Sabit əmimin kəndə gəlməsi toybayrama çevrilərmiş. Bir dəfə xəbər gəldi ki, əmim ailəsi ilə birlikdə, həyat yoldaşı Dilarə, övladları Azad və İlhamla kəndə gəlirlər. Əmimin sevdiyi xörəkləri bişirdilər. Bənövşə bibim əmimin gəlməyinə çox sevinirdi, bir tərəfdən də deyirdi, heyif ki, çox qala bilmir. O, iş ilə əlaqədar tez qayıdırdı, fəsəli, xəngəl onun ən çox xoşladığı yeməklər idi, hətta fəsəli bişirməyi həyat yoldaşı Dilarə xanıma da öyrətmişdi.

Sabit Abbasəliyev Azərbaycan Neft və Kimya İnstitutuna daxil olur və öz ümidlərini gerçəkləşdirməyə başlayır. Həmin vaxt doğma əmisi oğlu Vəkil də M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutuna daxil olur və birlikdə bir-birinə arxa-dayaq olub oxuyurlar. Xalası oğlu Həmid Abbasov da Azərbaycan Neft və Kimya İnstitutuna daxil olur, hər üçü ali təhsillərini başa vurur və nəhayət məqsədlərinə çatırlar.

Sabit Abbasəliyevin qəlbində, ürəyində həmişə yarımçıq qalan bir arzusu olur. Ali təhsil almaq, böyük qardaşlarının, Qəndəli və Qaranın qarşısına çıxmaq, anasını sevindirmək. Mən arzularıma çatdım, sizin ümidlərinizi doğrultdum demək arzusu yarımçıq qalır. Heyif ki, bu günümü anama göstərə bilmədim deyir.

Artıq Sabit Abbasəliyevin həyatında yeni qapıların açılması vaxtı gəlir, o ailə qurmağa qərar verir və həmişə həzin-həzin xatırladığı, ali məktəb illərindən yadında qalan Dilarə xanım barədə fikirləşir. Qərara gəlir ki, bir daha onu görsün və harada axtaracağını isə bilmir. Həyat möcüzələrlə doludur. İş ilə əlaqədar Neft-kimya zavoduna gedir, Dilarə xanımı orada görür və gözlərinə inanmır. O, axırıncı kursda oxuyarkən, Dilarə xanım birinci kursa daxil olur və onu institutda görür, xatirəsində qalır, ən doğrusunu desək, qəlbində qalır. Yollar ayrılır, amma yaddaşında həmişə saxlayır. Keçmişdə bir institutda oxuduqlarını bəhanə edib onu ilk görüşə dəvət edir və hər şey onun istədiyi kimi olur. Ailə qururlar, iki övladları dünyaya gəlir. Azad və İlham. Hər şey çox gözəl idi.

Sabit Abbasəliyev, qayğıkeş rəhbər və bacarıqlı təşkilatçı olduğu kimi, gözəl həyat yoldaşı və çox mükəmməl ata idi. Hər şey çox gözəl gedir, günlər vərəq-vərəq sayılır. Həyatın günü-gündən gözəlləşdiyi bir zamanda heç kimin inanmayacağı acı bir xəbər yaz ayının, yaz ətri gələn günlərinə yayılır.

23 may 1982-ci ildə səhər-səhər xoşa gəlməyən bu hadisə—Azərbaycanın fəxri olan Sabit Qasım oğlu Abbasəliyevin ürəyinin dayanması xəbəri yayıldı. Heç kim inanmırdı. On iki gün bundan qabaq 50 illik yubileyini qeyd etmişdi. Sabit Abbasəliyevin öldüyünə heç kim inanmasa da, bu xəbərin doğru olduğu təsdiqini tapdı, hər kəs yas içindəydi.

Sabit Abbasəliyevin həyat yoldaşı Dilarə xanım o qədər iradəli, qeyrətli və möhkəm düşüncəli idi ki, o bir an durdu və dedi: Sabit ölməyib, onun iki oğlu var. Azad və İlham. Böyük oğlu Azad atasının yolu ilə gedir. Dövlət Statistika Komitəsində çalışır, kiçik oğlu İlham başqa sənət seçib.

Dövlət qəzetləri onun haqqında dövlət və hökumət rəhbərlərinin adından nekroloq çap elədilər. Sabit Qasım oğlu Abbasəliyevin cənazəsi Birinci Fəxri Xiyabanda dəfn edildi.

Görkəmli dövlət xadimi, xalqının istəkli və qeyrətli oğlu Sabit Qasım oğlu Abbasəliyevin parlaq xatirəsi onu tanıyanların qəlbində əbədi olaraq yaşayacaqdır.

**Fiyzə ABBASƏLİYEVA,**
**Dövlət Statistika Komitəsinin sənaye və tikinti sektorunda aparıcı məsləhətçi.**

## *Yeni nəşrlər*




**662 saylı məhbus Seyid Cəfər Pişəvəri. Bakı, "Nurlar" Nəşriyyat Poliqrafiya Mərkəzi, 2019, 184 səh.**

İqtisad üzrə fəlsəfə doktoru Əkrəm Rəhimlinin (Bije) tərtib etdiyi, ön söz və şərhlərin müəllifi olduğu "662 saylı məhbus - S.C.Pişəvəri" kitabında görkəmli ictimai-siyasi xadim S.C.Pişəvəriyə aid istintaq materialları (1930-1940) sistemli şəkildə toplanmışdır. Kitabın rəyçiləri filologiya elmləri doktoru Vüqar Əhmədov və tarix elmləri doktoru Eynulla Mədədli, elmi redaktoru isə tarix üzrə fəlsəfə doktoru, dosent Səməd Bayramzadədir.

Annotasiyada deyilir: "Kitabda Rza şah dövründə məxfi sənədlər sırasında xüsusi qriflə saxlanılmış S.C.Pişəvəriyə aid istintaq materialları toplanmışdır. Bu materiallarda Pəhləvi rejiminin azad düşüncə və demokratiyaya qarşı dünyada analoqu az olan zorakılıq və amansızlığı öz əksini tapmışdı. İstintaq materiallarında S.C.Pişəvərinin dönməzliyi, mətanəti və qarşı tərəfə göstərdiyi mətinlik geniş aspektdə öz əksini tapmışdır".

Belə bir maraqlı faktlar, hadisələrlə zəngin olan kitabın tərtibçisi, nəşrə hazırlayan ön söz və şərhlərin müəllifi Əkrəm Rəhimlini oxuculara təqdim edən akademik Teymur Bünyadovun onun yaradıcılıq məhsullarını təqdim etdiyi yığcam sözü də diqqəti cəlb edir. Teymur müəllim "keçmişdə say-seçmə tələbələrindən olmuş" Ə.Rəhimlinin "güneyşünas kadrların yetişməsində" zəhmətini xüsusi qeyd etmişdir.

Kitab geniş oxucu kütləsi və Pişəvərisevər oxucular üçün nəzərdə tutulmuşdur.




**Eldar İsmayıl Böyüktürk. Mən Təbrizdən necə doyum. Bakı, "Ecoprint", 2019, 184 səh.**

Kitabda mövzu etibarilə həmişə aktual olan Cənubi Azərbaycanla bağlı müəllifin araşdırma xarakterli yazıları toplanmışdır. "Göyçəli günlərim"dən başlayan bu yazılarda "Azərbaycanla bağlı tarix"i faktlara, böyük tarixi şəxsiyyətlərin həyat və fəaliyyətinə, türk etnosunun qədimiliyini özündə qoruyub saxlayan yer-yurd adlarına, təbiət, eyni zamanda insan əli ilə yaradılan gözəlliklərin tərənnümünə də kifayət qədər yer ayrılıb. Eldar İsmayılın müxtəlif illərdə yazdığı həsrət dolu şeirlər, eləcə də Güney Azərbaycanda yaşayan şair və aşıqların yaradıcılığından seçmələr də kitaba daxil edilib. Vətənə məhəbbət, qədim dövrlərdən üzübəri Azərbaycanın yaşadığı ağrılar bu əsərlərin içərisindən odlu xətlə keçir. Görkəmli insanlar, yaradıcı ziyalılarla görüşlərdən alınmış təəssüratlar özünün zəngin faktları, gözəl xatirələri ilə də oxucuda böyük maraq doğurur.

Təbrizin gözəlliyindən, tarixi abidələrindən, həssas, qayğıkeş, səmimi, duyğusal insanlarla ünsiyyətdən doymayan Eldar İsmayıl Böyüktürkün yaradıcılıq çeşməsindən süzülüb gələn bu əsərlərin maraqla qarşılanacağına əminik.




**Dərələyəzli ustad aşıq Cəlil. Bakı, "Elm və təhsil", 2018, 160 səh.**

Kitab ustad aşığın anadan olmasının 150 illiyi münasibətilə AMEA Folklar İnstitutu Elmi Şurasının qərarı ilə nəşr olunmuşdur. Kitabın tərtibçisi, qeyd və şərhlərin müəllifi k.ü.f.d. Nazir Əhmədli, elmi redaktoru akademik Muxtar İmanov, məsləhətçilər professor M.Qasımlı, Əli Şamil, rəyçisi isə f.ü.f.d. Əziz Ələkbərlidir. Vaxtilə Dərələyəzli ustad aşıq Cəlil haqqında tədqiqatçıların apardığı araşdırmalarda əldə olunmuş faktlar, o yerlərin yaşlı sakinlərinin yaddaş xatirələrinə istinad edilmiş tədqiqat xarakterli publisistik məqalələrdə Aşıq Cəlilin obrazı yaradılmışdır. İlk baxışda oxucuda belə təsəvvür yaranır ki, bunlar Aşıq Cəlil haqqında sonuncu məlumatlardır. Lakin tərtibçinin də qeyd etdiyi kimi "inanmaq istərdik ki, bunlar heç də Aşıq Cəlil haqqında əldə oluna biləcək bütün məlumatlar deyil. Aşığın yeni-yeni tədqiqatçıları bu məlumatlara yenilərini əlavə edəcəklər". Ümid edirik ki, kitab oxucular tərəfindən maraqla qarşılanacaq.




**Lətifə Mirzəyeva. Kərim Məşrutəçi Sönməz (monoqrafiya). Bakı, "Elm və təhsil", 2019, 184 səh.**

Kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Teymur Əhmədov, rəyçilər filologiya elmləri doktoru Rəhim Əliyev, filologiya üzrə fəlsəfə doktoru Pərvanə Məmmədlidir.

Monoqrafiyada Azərbaycanın görkəmli şəxsiyyəti, şair, yazıçı, publisist, dilçi, tərcüməçi, tədqiqatçı, 60 ilə yaxın ədəbi yaradıcılıqla məşğul olan Kərim Məşrutəçi Sönməzin həyatı, ədəbi mühiti, bədii irsi tədqiq olunub.

Kitabın elmi redaktoru professor Teymur Əhmədov tədqiqatçının zəhmətini yüksək dəyərləndirir. O yazır: "Böyük elmi işçi Lətifə Mirzəyevanın oxuculara təqdim etdiyi "Kərim Məşrutəçi Sönməz" əsəri öz orijinallığı, dolğunluğu ilə diqqəti cəlb edir. Bu, zəhmətkeş alimin Kərim Məşrutəçi Sönməzə həsr etdiyi ikinci tədqiqatıdır. Onun ustad söz sərrafına həsr etdiyi ilk "Biblioqrafik göstərici" (2015) ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Burada Kərim Məşrutəçi Sönməzin həyatı və çoxcəhətli yaradıcılığı haqqında zəngin məlumat verilmişdir".

Əsər, sözün həqiqi mənasında, öz orijinallığı, dolğunluğu, genişəhatəliliyi ilə diqqəti cəlb edir və yeni tədqiqatlara yol açır.




**Gülarə Munis. Emin, sən ölməmisən. Bakı, "Ecoprint", 2019, 128 səh.**

Kitabda Qarabağ uğrunda döyüşlərdə qəhrəmanlıqla vuruşaraq şəhid olmuş Buzovna qəsəbə sakini, 19 yaşlı Emin Rafiq oğlu Əliyevin həyat yolu, ibrətamizlik nümunəsi olaraq mənsur şeir, esse, xatirələr fonunda təsvir olunmuşdur. Müəllif ilk sözündə bildirir ki, "şəhid oğulların hər birinin döyüş yolu bir qəhrəmanlıq dastanıdır. O səbəbdən mən də bu xatirə kitabında nəzmlə nəşri yanaşı qələmə aldım".

Gülarə Munisin müxtəlif vaxtlarda vətən, torpaq məhəbbəti, insanın insana olan qayğısı, sevgisi, ali dəyərlərimizlə bağlı esselərinin ruhu da şəhid Emin Əliyevin yeniyetməlik çağlarının tərtəmiz dünyası, arzu və istəkləri ilə səsləşdiyindən onları Eminin nəğmələri, adına yazılmış şərqilər kimi də anlamaq olar. Vətənpərvərlik, doğma yurd təəssübü bu yazıları ideya və məzmunca bir-birinə bağlayır. İnanırıq ki, Emin kimi vətən yolunda şəhid gedən oğullarımızın qanı yerdə qalmayacaq.

**Gülxas Səmədli. "Çiçək yağışı". Bakı, "Ecoprint", 2019, 232 səh.**

Kitaba AYB-nin üzvü, "Sözlü, sehrli dünya" ədəbi məclisinin üzvü, həm də




toplunun müəllifi Elman İsrafiloğlu maraqlı bir ön söz yazmışdır. Burda G.Səmədlinin əsərlərinin təhlili, şairin duyğulu dünyasının çiçəkləri öz ətri, təravətilə oxuculara təqdim olunur. Mövzuları, şeirlərinin xarakteri, ictimai fikrə təsiri haqqında maraqlı mülahizlər söylənilir. E.İsrafiloğlu yazır: "Vətən hər birimizin qürur yeri, fəxarət yerimizdir. Hər birimiz Vətən üçün yanmalı, vətən üçün yaşamalıyıq. Vətəni hər şeydən uca sayır Gülxas Səmədli. Vətənin şöhrəti ilə, Vətən eşqiylə ürəyi döyünən Gülxas Səmədli könül nəğmələrinə böyük yer verir". Göründüyü kimi, vətən adı, vətən sevgisi şairənin yaradıcılığının ana xəttidir, müəllif bu xəttə bütün varlığı ilə bağlıdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**Zahiddin Abbasov. Həbsxananın bir addımlığında. "3 saylı Bakı Mətbəəsi" ASC. Bakı, 2018, 240 səh.**

XIII fəsildən ibarət olan bu əsər roman janrında yazılmışdır. Romanda baş verən hadisələr həyat gerçəkliklərinə




söykənmiş hadisələr, insanın mənəvi dünyası, təzadlı xarakterlər, obrazlarla zəngindir. "Respublikamızın rayonlarının birində çalışan gənc partiya işçisinin bəzi rəhbər işçilər tərəfindən təqiblərə məruz qalması, öz əqidəsindən dönməyərək mübarizə aparması və sonda isə haqq-ədalətin öz yerini tapması əks olunmuşdur".

İnsanın taleyi, həyatında baş verən hadisələr həmişə yaxınlarını düşündürür, bir-birinə həyan olmaqdan ötrü münasibətlər daha da doğmalaşır. "Həbsxananın bir addımlığında" məhz bu hisslərin, duyğuların simində köklənib.




**Qoşqar Əliyev. Sağlam düşüncəyə çağırış. Bakı, "Neoprint" nəşriyyat evi, 2017, 218 səh.**

Azərbaycan Tibb Universitetinin İctimai fənlər kafedrasının müdiri, fəlsəfə doktoru, professor Qoşqar Əliyevin "Sağlam düşüncəyə çağırış" adlı məqalələr toplusu çox maraqlı politoloji problemlərə həsr edilmişdir. Bu topluda 2011-2016-cı illərdə dövri mətbuatda, əsasən "Respublika" qəzetində çap olunmuş elmi-publisistik məqalələr öz əksini tapır. Yazılmış məqalələr vahid bir problemin təhlilinin ayrı-ayrı cəhətlərini əhatə edir. Bu məqalələrdə ən mühüm qayə və məntiq müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi sayəsində həyata keçirilən tədbirlərin əhəmiyyətli olmasından ibarətdir.

Kitabın geniş oxucu kütləsi üçün maraqlı olacağına inanırıq.

**Təqdim etdi:**
**Şəfəq NASİR,**
**"Respublika".**

# Uşaq Musiqi Məktəbində

Lökbatan qəsəbəsi Bakı şəhərinin ən böyük qəsəbələrindən biridir. Qaradağ rayonunda gənclərin, ələlxüsus uşaqların incəsənətə və o cümlədən musiqiyə olan həvəsini nəzərə alaraq Lökbatan qəsəbəsində də yeni musiqi məktəbinin açılması zərurəti yaranmışdır. Elə bu məqsədlə də 1959-cu il avqustun 19-da burada yeni musiqi məktəbi açıldı. 1975-ci ildə məktəb statusu verildi. Onu da qeyd etmək lazımdır ki, 1986-cı ildə Bakı şəhəri üzrə ilk dəfə olaraq uşaq musiqi məktəbləri arasında xanəndəlik ixtisası bu məktəbdə tədris olunmağa başlanmışdır. Məktəb 1989-cu ildən məşhur xanəndə Cabbar Qaryağdıoğlunun adını daşıyır. C.Qaryağdıoğlu adına 9 nömrəli Uşaq Musiqi Məktəbinə 2013-cü ildən ali ixtisas təhsilli, təcrübəli musiqiçi Əfrasiyab Dadaşov rəhbərlik edir ki, elə həmin ildən də məktəb respublika uşaq musiqi məktəbləri arasında böyük nailiyyətlər əldə etmişdir. Onun apardığı fəaliyyətinin nəticəsidir ki, məktəbə uşaqların cəlb olunması, valideynlərlə iş, müəllim və şagirdlərin dərsə münasibəti və davamiyyəti yüksəldilmişdir. Əfrasiyab müəllimlə söhbət edərkən o qeyd etdi ki, məktəbin istər müəllim, istərsə də şagird kontingenti artmışdır. Belə ki, məktəbdə indi 70-dən çox müəllim ixtisasları üzrə 400 uşağa dərs deyir ki, onlar da burada musiqinin sirlərinə yiyələnirlər. Fərəhlə qeyd etməliyik ki, bu məktəbin bir çox yetirmələri respublikamızın mədəniyyət və incəsənət, musiqi təmayüllü ali və orta ixtisas məktəblərini bitirmiş və hər il öz ixtisasları üzrə təmayüllü məktəblərə daxil olurlar.

Məktəbin şagirdləri indi Milli Konservatoriya, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və musiqi kolleclərində, Respublika İncəsənət Gimnaziyası və Bülbül adına orta ixtisas musiqi məktəblərində təhsillərini davam etdirir və hətta məktəbin məzunları arasında bu tədris ocaqlarını müvəffəqiyyətlə bitirib respublikamızın musiqi təmayüllü məktəblərində çalışırlar. Onu da qeyd etməliyik ki, 9 nömrəli Lökbatan Uşaq Musiqi Məktəbinin yetirmələrinin bəzisi xarici ölkələrdə öz sənətlərini davam etdirirlər.






Məktəbin direktoru Ə.Dadaşov onu da qeyd etdi ki, respublikamızda keçirilən təqvim günləri və respublika səviyyəli tədbirlərdə, o cümlədən Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin də təşkil etdiyi tədbirlərdə yaxından iştirak edirlər. Bundan başqa uşaqların musiqi təhsilini daha da artırmaq üçün məktəbdaxili və məktəbxarici tədbirlər də təşkil olunur. Belə ki, burada şagirdlərdə musiqiyə marağı artırmaq üçün ustad dərsləri, sinif konsertləri, valideynlərlə müəllim görüşləri və sair tədbirlər də həyata keçirilir.

Burada təşkil olunan hesabat konsertləri, ayrı-ayrı musiqi məktəbləri ilə təşkil olunmuş əlaqəli konsertlər də uşaqların musiqi biliyinə böyük təsir göstərir. Məsələn, bu yaxınlarda 9 nömrəli uşaq musiqi məktəbinin Abşeron rayonunun Qobu qəsəbə Uşaq Musiqi Məktəbində Novruz bayramı ilə əlaqədar verdiyi konsert bu qəbildəndir. Konsertdə şagirdlərdən Xəyal Əlihüseynov, Miranə Qasımzadə, Aytən Hüseynova, Zahid Paşazadə, Rəqsanə Məliyeva, Aytac Cavadzadə, Səma Soltanzadə, Razim Məmmədli, Mədinə Səlimova, Yarəhməd Yarməmmədov, Kərim Mirzəquliyev, Aydan Həmidova və başqa şagirdlərin ifaları dinləyicilər tərəfindən hərarətlə qarşılanmışdır.

Onu da qeyd etmək lazımdır ki, istər dərslərin tədris olunmasında, istərsə də konsertlərin yüksək səviyyədə keçirilməsində müəllimlərdən Lalə Əlizadə, Lalə Hüseynova, Elmira Əsədova, Aygün Hüseynova, Sevda Hacıyeva, Ülviyyə Hacıyeva, Rəcəb Hüseynzadə, Kəmalə Mehdiyeva, Aidə Heydərova, Samirə Qurbanova, Fazil Cəfərov, Vüsalə Məmmədova, Rövşən Tağıyev, Fədail Qəhrəmanov, Elşad Həmidov, Sevda Hüseynova və başqalarının əməyi böyükdür.

Onu da qeyd etmək lazımdır ki, məktəb üçün müasir tipli bina tikilib istifadəyə verilmişdir.

**Zabit CAVADOV,**
**"Respublika".**

# Dövlət Sərhəd Xidməti mətbuat mərkəzinin məlumatı

**Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində həyata keçirilmiş əməliyyat-axtarış və qoşun tədbirləri nəticəsində ölkə ərazisinə narkotik vasitələrin qeyri-qanuni gətirilməsinin qarşısı alınmışdır.**

**11 aprel 2019-cu il tarixində, saat 01:25 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədindən qaçaq yolla İran İslam Respublikasından Azərbaycan Respublikasına narkotik vasitələri keçirmək istəyən və əraziyə "Mersedes-Benz" markalı avtomobillə gələn 3 nəfər Azərbaycan Respublikasının vətəndaşı 1978-ci il təvəllüdlü Şirinov Ramil İmamverdi oğlu, 1970-ci il təvəllüdlü Eyvazov İntiqam Eldar oğlu və 1974-cü il təvəllüdlü Abdullayev Qurban Cəmil oğlu şübhəli şəxs qismində saxlanılmışlar.**

**Saxlanılan şəxslərə və nəqliyyat vasitəsinə baxış keçirilərkən ümumi çəkisi 6 kq 330 qr olan qurudulmuş marixuana və 55 ədəd toxum narkotik vasitə aşkar olunaraq götürülmüşdür.**

**Qeyd olunan fakt üzrə müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir, saxlanılan şəxslər barəsində cinayət işi başlanılmışdır.** ■

